Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16-18 MART 2019-cu il

№ 51 (3949)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QLOBAL BAKI FORUMUNUN DÜNYADA ƏN DƏQİQ TƏHLÜKƏSİZLİK FORMULUNU AZƏRBAYCAN PREZİDENTİ GÜNDƏMƏ GƏTİRDİ...

■ səh. 3 ■

Prezidentin sosial siyasət paketinin davamı - qanunsuz tikililərin sənədləşdirilməsi "yerindən tərpəndi"...

■ səh. 5 ■

Prezidentin yaradıcılıq ittifaqlarına ayırdığı yardım onların bir çoxunun illik büdcəsindən az qala çox oldu...

■ səh. 13 ■

Azərbaycan-Pakistan hərbi əməkdaşlığı Ermənistan təcavüzkarlığına ağır zərbə faktoruna çevrilir

■ səh. 9 ■

Həmsədrlər ünvanlı Qarabağ bəyanatları üslubuna nə vaxt keçəcək - Ermənistan son bəyanatı qəti özünə aid etmək istəmir...

■ səh. 7 ■

ABŞ Dövlət Departamenti Ermənistanda qadın və uşaq siyasətini yıxıb sürüdü...

■ səh. 6 ■

"Yumurta qalmaqalına" OBA marketlər şəbəkəsindən və "Muğan" fabrikindən reaksiya gəldi - "istehsal etməmişik çek göstərsinlər" deyildi, AQTA araşdırmaya başladı

■ səh. 15 ■

Təhsil Nazirliyindən ictimai müzakirə doğurmuş daha bir layihə - "Ehtiyat dərsliklər" barədə bir az artıq bilgilər...

■ səh. 11 ■



## Azərbaycan xarici borc məsələsində MDB-də iki ən yaxşı ölkədən biri - qalan ölkələr ÜDM-nin yarısını borcludur...

■ səh. 5 ■





Zurabişvilinin səfərində Ermənistanı pərt edən ciddi məqam - ərazi bütövlüyü barədə Bakıda dediyi sözlərdən dönmədi...

■ səh. 8 ■

ABŞ Erməni Assambleyası iki saxta arqumentlə Konqresdən Ermənistan üçün 100 milyon qopara biləcəkmi...

■ səh. 6 ■

Bakı Nəqliyyat Agentliyinin «prinsipial» cərimə əməliyyatı əhali arasında narazılığı hər gün artırır

■ səh. 14 ■

Avropa Parlamentindən Azərbaycana növbəti ərazi bütövlüyü dəstəyi...

■ səh. 4 ■



Lombardçıların və eksçeynclərin Paşinyana qarşı üsyanı başladı...

■ səh. 7 ■



"Etibarlı Ermənistan" NATO-nun hansı maraqlarına cavab verir?

■ səh. 8 ■



Medianın gücü - ictimai rəy AQTA-nın sükutunu pozdu...

■ səh. 11 ■



Xəstəxanalarda infeksion nəzarət məntəqələri...

■ səh. 15 ■





## Azərbaycan Prezidenti Forumun yüksək iştirakçılarının qəbulunu davam etdirdi...

**Prezident İlham Əliyev martın 15-də Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri** Turki Al Faysalı, Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, BMT baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saksı, ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.

## Rəsmi Moskva Qarabağ formatını dəyişdirmək cəhdləri barədə...

**Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar formatı yalnız tərəflərin razılığı ilə dəyişdirilə bilər. "Trend"in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib.**

Onun sözlərinə görə, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi danışıqlar formatı ilə bağlı dəfələrlə bəyan edib ki, dəyişikliklər yalnız tərəflərin razılığı əsasında mümkündür: "Bu təkcə bizim deyil, digər həmsədr ölkələrin də mövqeyidir".

Rusiyanın Moskvada aprelin 5-də keçirilən MDB ölkələrinin Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici siyasət idarələri rəhbərlərinin görüşünün keçirilməsinə təşəbbüs göstəriləcəyi halda onlara meydança verməyə hazır olub-olmadığı barədə suala gəlincə, M.Zaxarova qeyd edib ki, ümumiyyətlə, ölkələr istənilən məsələ ilə bağlı meydança vermək imkanı və ya vasitəçi rolu oynamağa görə Rusiya tərəfinə müraciət edəndə, rəsmi Moskva hər zaman bu məsələlərə hörmətlə yanaşır.

# Prezident İlham Əliyev İranın iqtisadiyyat və maliyyə işləri üzrə nazirini qəbul edib

**Prezident İlham Əliyev martın 15-də İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Azərbaycan-İran hökumətlərarası birgə komissiyasının həmsədri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Baki-xeber.com-un prezident.az saytından aldığı xəbərə görə, Bakıda Azərbaycan-İran hökumətlərarası komissiyasının toplantısının səmərəli keçəcəyinə və müzakirə olunan məsələlərin öz həllini tapacağına əminlik ifadə olunan görüşdə nəqliyyat, energetika, sənaye, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, səhiyyə və digər sahələrlə bağlı müzakirə olunan məsələlərin gözəl nəticələr verdiyi vurğulandı, eyni zamanda, ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında danışılıb, Neftçalada müasir avtomobil zavodunun işə düşməsindən məmnunluq ifadə olunub. Həmçinin, Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyətə başlaması mühüm hadisə kimi dəyərləndirilib. Prezident İlham Əliyev bu yaxınlarda Qəzvin-Rəşt dəmir yolunun açılışı münasibətilə təbriklərini çat-



dırıb.

Görüşdə elektroenergetika sahəsində görülmüş işlər də yüksək qiymətləndirilib və bu sahədə əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatda inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Qəbula görə minnətdarlığını bildirən Fərhad Dejpəsənd İran Prezidenti Həsən Ruhaninin salamlarını və Novruz bayramı münasibətilə təbriklərini dövlət başçısına çatdırıb, qeyd edib ki, Həsən Ruhani və bütövlükdə İran Azərbaycana dost və qardaş ölkə kimi münasibət göstərir. Fərhad Dejpəsənd Prezident İlham Əliyevin ikitərəfli münasibətlər haqqında söylədiyi fikirlərin əhəmiyyətini vurğulayıb.

Görüşdə qeyd olunub ki, Azərbaycan və İran prezidentlərinin iradəsi sayəsində iki ölkə arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

Prezident İlham Əliyev İran Prezidenti Həsən Ruhaninin salamlarına və Novruz bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirərək, onun da salamlarını və bayram təbriklərini İran Prezidentinə çatdırmağı xahiş edib.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Fərdi yaşayış evlərinin sənədləşməsi ilə bağlı Prezidentin tapşırıq verdiyi təsdiqləndi

***PA rəsmisi:** "Çoxmənzilli binalarla bağlı fərman fərdi yaşayış evlərinə şamil edilmir"*



**Prezident İlham Əliyevin bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında imzaladığı fərman fərdi yaşayış evlərinə şamil edilmir.**

Amma həyət evlərinin sənədləşməsi ilə bağlı vəziyyətin öyrənilməsi üçün tapşırıqlar verilib. "Trend"in məlumatına görə, bunu Prezident Administrasiyasının iqtisadi məsələlər üzrə köməkçi xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev jurnalistlərə açıqlamasında deyib. F.Mustafayevin sözlərinə görə, bəzi yaşayış evləri mühafizə zonalarında, ayrı-ayrı şirkətlərin balansındakı ərazilərdə, kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilib: "Təbii ki, bu məsələnin həll edilməsi lazımdır. Vətəndaşları narahat edən problemlərin aradan qaldırılması üçün Prezident İlham Əliyev fərmanlar verir. Düşünürəm ki, yaxın zamanlarda məsələnin həlli ilə bağlı işçi qrup yaradılacaq. Yəqin ki, aidiyyəti üzrə bununla da bağlı tapşırıqlar veriləcək".

# "Leş əti" qalmaqalına görə 8 nəfər həbs edildi



**Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatına görə, keçirilmiş əməliyyat tədbirləri nəticəsində Bakı şəhəri, Abşeron, Ağcabədi və Bərdə rayonlarında fəaliyyət göstərən ət pavilyonu və kəsim sahələrində insan sağlamlığı üçün təhlükə təşkil edən yararsız heyvan cəmdəklərinin aşkar edilməsi nəticəsində 8 şəxs barəsində cinayət işi başlanaraq, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.**

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz hallar tam və hərtərəfli araşdırılmaqla keyfiyyətsiz ətlərin kütləvi satışı məqsədi güdən digər ictimai iaşə xidmətləri subyektlərinin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***Baki-xeber.com***

**Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı deyib ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.**

*"Bunu Azərbaycanın təcrübəsinə əsaslanaraq verdiyi və Forumun dünyaya təlqin etdiyi ən mühüm tezis kimi qəbul edə bilərik"*




# Qlobal Bakı Forumunun dünyada ən dəqiq təhlükəsizlik formulunu Azərbaycan Prezidenti gündəmə gətirdi...

***Əpoş Əliyev:** "Dövlət başçısının verdiyi bu mesaj bəşəri əhəmiyyətlidir"*

Prezident İlham Əliyev qeyd edib ki, multikulturalizm Azərbaycanın dövlət siyasətidir:

"Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyl gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq.

Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.

Azərbaycan nisbətən gənc, müstəqil ölkədir. Lakin biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Bunun sübutu olaraq, mən bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz, həmçinin, qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda iştirak edirik. Bu yaxınlarda biz Əfqanıstanda təhlükəsizliyi təmin edən hərbçilərimizin sayını artırdıq. Biz, həmçinin, koalisiya qüvvələrini çox mühüm nəqliyyat və logistika dəstəyilə təmin edirik".

Göründüyü kimi, Azərbaycan Prezidenti ölkəmizin uğurla həyata keçirdiyi multikulturalizm siyasətini xüsusi olaraq vurğulayır və bildirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Bunu Bakıda keçirilən tədbirin dünyaya təlqin etdiyi ən mühüm mesajlardan saymaq olarmı?

**AMEA-nın əməkdaşı, gənc alim Əpoş Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, Qlobal Bakı Forumunun dünya üçün çox böyük əhəmiyyəti var:** "Təsadüfi deyil ki, Bakı artıq sayca 7-ci belə Foruma evsahibliyi edir. Həmin Foruma olan böyük maraq iştirakçıların sayı və kimliklərinə nəzər saldıqda daha aydın görünür. Belə auditoriyadan verilən mesajlar bütün dünya üçün aktuallıq kəsb edir. Məlumdur ki, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Bundan başqa, multikulturalizmi dövlət siyasəti kimi qəbul edən digər ölkələrdən fərqli olaraq, Azərbaycanda etnik-mədəni müxtəlifliklər multikulturalizm siyasəti vasitəsilə uğurla, səmərəli şəkildə tənzimlənir. Bunun əsas göstəricisi kimi ölkəmizdə etnik-dini zəmində heç bir qarşıdurmanın olmamasıdır. Təsadüfi deyil ki, Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən biri hesab olunur. "Multikulturalizmin Azərbaycan modeli" və ya "Azərbaycan multikulturalizm modeli" kimi terminlər siyasi leksikona, elmi ədəbiyyata daxil edilib.

Multikulturalizmin Azərbaycan Respublikasının dövlət siyasəti olmasının mühüm təzahürlərindən biri burada dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasındadır. Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması özünü ilk növbədə dörd əsas məqamda göstərir: ölkəmizdə dini azadlıqların təmin edilməsində, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasında, onların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstək göstərilməsində və dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında".

Gənc alimin sözlərinə görə, belə bir tribunadan verilən bəyanatlara böyük maraq olur: " Həmin mesajlar dünya birliyi tərəfindən ciddi qəbul edilir. Bilirik ki, tarixən hər bir dövlətin qüdrətinin əsasında iqtisadi güc, siyasi nüfuz dayanır. Lakin ölkədə milli birlik, humanitar problemlərin xalqın da qəbul etdiyi kimi həlli olmadan qüdrətli səviyyəyə gəlib çatmaq mümkün deyil. Sosial-siyasi sabitlik iqtisadi gücün ən əsas lokomotivlərindəndir, onun da kökündə, təbii ki, humanitar məsələlərin vaxtında, operativ həlli durur. Əgər humanitar məsələ və problemlər vaxtında, həm də beynəlxalq normalara uyğun həll olunmasa, gec-tez, ölkədə bu zəmində çox ciddi böhran yaşana bilər. Bu da, öz növbəsində, iqtisadi və siyasi proseslərə çox mənfi təsir göstərər. Bundan başqa, hər bir insan müəyyən intellekt sahibidir. Ölkədə müxəlif dini, milli dəyərlərə məxsus insanların siyasi və hüquqi bərabərliyinin təmin olunması, etnik azlıqların milli-mədəni inkişafına qanunla əsas yaradılması, cəmiyyətin də bu prosesə adi normal yaşayış qaydası kimi baxması ölkədə birliyin sarsılmazlığını təmin edir. Bu gün ölkəmizdə sağlam tarixi köklərə malik multikulturalizm dövlət rəhbərliyinin düşünülmüş siyasəti ilə daha da inkişaf edir, yeni pozitiv çalarlarla zənginləşir. Dövlət başçısının verdiyi bu mesaj bəşəri əhəmiyyətlidir. Eyni zamanda, bunu Azərbaycanın təcrübəsinə əsaslanaraq verdiyi və Forumun dünyaya təlqin etdiyi ən mühüm tezis kimi qəbul edə bilərik".

***Məhəmmədəli QƏRİBLİ***



# Metyu Brayzadan maraqlı Qarabağ açıqlaması...

*"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar formatının dəyişdirilməsi ədalətsiz olardı..."*

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların formatının dəyişdirilməsi ədalətsiz olardı.**

Bunu "Trend"ə ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri Metyu Brayza deyib.

O qeyd edib ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatında Ermənistanın Baş naziri Nikol Paşinyanın vasitəçilik prosesi formatının dəyişdirilməsi barədə müraciəti qəbul edilməyib: "Həmsədrlərin bəyanatı tərəfləri vicdanlı danışıqları ən yüksək siyasi səviyyədə daha çox davam etdirməyə, münaqişənin nizamlanması üçün mümkün çərçivə sazişinin "Əsas prinsiplərini" qəbul etməyə çağırır. Minsk Qrupu formatının dəyişdirilməsi ədalətsiz olardı".

Daha sonra M.Brayza əlavə edib ki, son bəyanat ATƏT-in və Minsk Qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan rəhbərliklərinə çərçivə sazişinin müəyyən olunmasında kömək göstərdiyini nümayiş etdirir: "Minsk Qrupunun bu bəyanatında həmsədrlər Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın görüşünü alqışlayır. Ona görə də həmsədrlərin son bəyanatında qeyri-adi və ya yeni bir şey yoxdur".

Minsk Qrupunun keçmiş həmsədri əlavə edib ki, Azərbaycan və Ermənistan rəhbərlikləri həmsədrlərin "Əsas prinsiplərə" sadiq olmaq çağırışına əməl etsə, qarşılıqlı etimad münasibətlərini inkişaf etdirsə, xüsusilə də öz vətəndaşlarını sülhə hazırlamaqda davam etsələr, danışıqlarda irəliləyiş daha çox nəzərə çarpacaq: "Amma hələlik iki ölkə rəhbərliyinin qarşılıqlı etimad səviyyəsini bərpa edib-etməyəcəyi və bu irəliləyiş üçün vacib çətin siyasi kompromislərə gedə bilib-bilməyəcəkləri məlum deyil. Bunun üçün ABŞ, Fransa və Rusiya prezidentləri tərəfindən təşviq bu prosesə yardım edə bilər".

**Avropa Parlamenti bir daha Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəkləyib. Avropa Parlamentinin martın 13-də qəbul etdiyi sənəddə deyilir:**

*"Zaman dəyişdikcə, Aİ bu məsələyə sırf fərdi qaydada yanaşır"*

# Avropa Parlamentindən Azərbaycana növbəti ərazi bütövlüyü dəstəyi...

***Yeganə Hacıyeva:** "Bu yanaşma Azərbaycan tərəfinin təkidi və düzgün diplomatik səyləri əsasında özünə yer tapıb"*



"Şərq tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə zərər vurmaq məqsədi daşıyan dezinformasiyanın yayılmasını və gələcək dezinformasiya təhdidlərini diqqətə almaq; insanlar arasında əlaqələrə diqqət yönəltməklə və icmalar səviyyəsində dayanıqlılıq mənbəyi olan mövcud vətəndaş cəmiyyəti şəbəkələri ilə işləməklə, "Şərq tərəfdaşlığı" ölkələri ilə uzunmüddətli strateji yanaşmanın və qarşılıqlı fəaliyyət proqramının hazırlanmasına prioritet diqqət ayırmaq".

Xatırladaq ki, 2018-ci il dekabrın 12-də Avropa Parlamenti "Aİ-nin tərəfdaş ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə dəstəyə sadiqliyi"nin təsdiqləndiyi qətnamə qəbul edib. Göründüyü kimi, Avropa Parlamenti son 4 ay ərzində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sayca ikinci sənədi qəbul edib. Qəbul edilən sonuncu sənədin əhəmiyyətini necə dəyərləndirmək olar?

**Avropa qurumları ilə yaxından əməkdaşlıq edən, beynəlxalq münasibətlər üzrə mütəxəssis Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, Aİ-nin qəbul etdiyi son sənəd olduqca əhəmiyyətlidir və Azərbaycanla münasibətlərin normal məcrada inkişafını səciyyələndirən mühüm amildir:** "Martın 13-də Avropa Parlamenti keçirdiyi plenar iclasında böyük səs çoxluğu ilə "Avropa İttifaqına üzv ölkələrə və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsinə Avropa əleyhinə təbliğata strateji cavab tədbirləri" barədə mühüm qətnamə qəbul edib.

Avropa Parlamentinin Müdafiə və təhlükəsizlik məsələləri üzrə alt komitəsinin sədri Anna Fotuqanın müəllifi olduğu qətnamə ilə üçüncü ölkələrdən yönəlmiş dezinformasiyalara qarşı tədbirlərin görülməsi üçün Avropa İttifaqının xarici siyasət xidmətinə tövsiyə qəbul edilib. Tövsiyədə göstərilir ki, belə dezinformasiyaların yayılması "Şərq tərəfdaşlığı" ölkələrinin suverenliyi və ərazi bütövlüyü üçün təhlükə yaradır.

Həmin gün plenar iclasda böyük səs çoxluğu ilə daha bir qətnamə qəbul edilib. "Avropa Komissiyasına və Avropa İttifaqının xarici nümayəndələrinin fəaliyyəti ilə bağlı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsinə tövsiyələr" haqqında qəbul edilmiş qətnamədə qeyd olunub ki, Avropa İttifaqının xüsusi nümayəndələrinin fəaliyyət dairəsi, onların mandatı və rolu Avropa İttifaqının xarici siyasət üzrə müəyyənləşdirilmiş qlobal strategiyasına uyğun olmalıdır. Bu strategiya Avropa İttifaqının xarici siyasətinin əsaslarını müəyyənləşdirən konsepsiya olaraq Avropa İttifaqı daxilində və ondan kənarda olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərini Avropanın təhlükəsizliyinin əsas elementləri kimi qəbul edib.

Faktiki olaraq Avropa Parlamentinin bir plenar iclasında iki dəfə böyük səs çoxluğu ilə "Şərq tərəfdaşlığı" ölkələrinin, o cümlədən, Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə sadiq olduğu nümayiş etdirilib".

Politoloqun sözlərinə görə Aİ-nin qəbul etdiyi son iki qətnaməni tərəflərin əməkdaşlığında yeni pillə də saymaq olar: "Təbii ki, bu yanaşma Azərbaycan tərəfinin təkidi və düzgün diplomatik səyləri əsasında özünə yer tapıb. Aİ-nin bundan öncəki mövqelərində Azərbaycanla bağlı yazılırdı ki, Avropa Birliyi Azərbaycanın ərazi bütövlüyünü və xalqların öz müqəddəratını həll etmək təşəbbüsünü beynəlxalq hüququn çərçivəsində qəbul edir. Hazırkı sənəddə isə xalqların öz müqəddəratını təyin etmək bəndi yer almayıb. Qeyd edilir ki, Aİ Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüququn və ölkəmizin qanunlarının təsbit etdiyi qaydada tanıyır.

Bundan öncəki Assosiativ Sazişlə bağlı məsələdə Aİ-nin ehtiyat etdiyi əsas məqamlar olub. Onlar münaqişə tərəfləri ilə bağlı elə məqamlar ortaya qoyurdular ki, hazırda Azərbaycanın ürəyincə olan məsələ gələcəkdə Ermənistanın qurumla əməkdaşlığına manea törətməsin. Bu yalnız Azərbaycan deyil, Ukrayna, Gürcüstan və başqa ölkələrə də aid edilirdi. Hansı ölkələrin ki, konflikti var, orada ərazi bütövlüyü şübhə altında idi. Aİ postsovet ölkələrilə əməkdaşlığa paket formasında baxırdı. Zaman dəyişdikcə, Aİ bu məsələyə sırf fərdi qaydada yanaşır. Bu konkretlik bizi sevindirir".

***Məhəmmədəli QƏRİBLİ***



# Terrorçu Yeni Zelandiyada məsciddə necə qətliam törətdiyini anbaan İnternetə yerləşdirib

**Yeni Zelandiyanın Kraystçerç şəhərində yerləşən iki məscidə silahlı hücum olub. Hadisə nəticəsində ən azı 49 nəfər ölüb. Ölkə səhiyyə rəsmiləri aralarında uşaqların da olduğu azı 50 nəfərin xəstəxanaya yerləşdirildiyini açıqlayıb.**

Baki-xeber.com xəbər verir ki, hadisəni terror hücumu kimi dəyərləndirən Yeni Zelandiyanın baş naziri Casinda Ardern qanlı hücumun ölkə tarixinin ən qaranlıq günlərindən biri olduğunu deyib. Onun sözlərinə görə, ölkədə ən yüksək dərəcəli təhlükəsizlik rejimi elan edilib.

İki məscidə qanlı hücumdan sonra ölkədəki bütün məscidlər təhlükəsizlik məqsədilə bağlanıb. Baş nazir Casinda Ardern Kraystçerç şəhərində yerləşən məscidlərə silahlı hücumdan sonra xalqa müraciət edib. Baş nazirin sözlərinə görə, hadisədən sonra 4 nəfər ekstremist baxışlarına görə saxlanıb, lakin onlardan heç biri polis nəzarətində olmayıb: "Bu aydındır ki, baş verənləri yalnız terror aktı kimi dəyərləndirmək olar. Bildiklərimiz deməyə imkan verir ki, bu çox yaxşı planlaşdırılmış aktdır. Şübhəli avtomobillərə yerləşdirilən iki partlayıcı qurğu aşkarlanıb və zərərsizləşdirilib".

Baş nazir saxlananlardan birinin Avstriya vətəndaşı olduğunu deyib.

Bu arada, hadisəni ultrasağçı Avstraliya vətəndaşının törətdiyi məlum olub. Onun Avstraliyanın Qrafton şəhərinin sakini Brenton Tarrant adlı şəxs olduğu bildirilir. 28 yaşlı cinayətkar daha əvvəl öz məramları barədə danışdığı 37 səhifəlik "manifest" paylaşıb. Iki məsciddə qətliam törədən terrorçunun hücumu sosial mediada canlı yayımladığı da ortaya çıxıb. Görüntülərdə onun məscidə hücumdan sonra təkrar gəldiyi avtomobilə minib ərazidən uzaqlaşdığı görünür. Artıq "Twitter" sosial şəbəkəsi Brenton Tarrantın səhifəsini bağlayıb.

Yerli media yazır ki, hücumun iki nəfər tərəfindən törədildiyi təxmin edilir.

**Azərbaycanda daşınmaz əmlakın qeydiyyatı sahəsində son illər bir sıra yeniliklər və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı geniş tədbirlər həyata keçirilir. Bu barədə Əmlak Məsələləri Dövlət Komitəsinin açıqlamasında bildirilir.**

# Prezidentin sosial siyasət paketinin davamı - qanunsuz tikililərin sənədləşdirilməsi "yerindən tərpəndi"...

***Rəşad Həsənov:** "Hazırlanacaq konsepsiya, əvvəlki dövrlərdə qəbul edilən qərarlardan fərqli olaraq, problemin əhəmiyyətli hissəsinin həllinə şərait yaradacaq"*



*"...qanuna uyğun olmayan formada tikilmiş mənzillərin köçürülməsi..."*

Məlumatda deyilir ki, bununla bağlı "kütləvi çıxarış", "əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kimi sosial layihələr reallaşdırılmaqla vətəndaşlara öz ünvanlarında xidmət göstərilir, əmlaklarının qeydiyyata alınması məsələləri təbliğ edilir.

Lakin qeyd edilməlidir ki, bir çox hallarda, vətəndaşlar tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqlarda, habelə mühafizə zolaqlarında yaşayış və ya qeyri-yaşayış binaları inşa edilir ki, onların qeydiyyata alınması qanunvericiliklə mümkün olmur və çətinliklər yaranır.

Digər tərəfdən, vətəndaşlar qeydiyyatla bağlı müvafiq sənədləri olmasına baxmayaraq, əmlaklarının qeydiyyata alınması barədə müraciət etmirlər.

Hazırda Prezident Administrasiyasının tapşırığına uyğun olaraq, komitə tərəfindən özbaşına və sənədsiz inşa edilmiş tikililərin sənədləşdirilməsi ilə bağlı konsepsiya hazırlanır. Yaxın zamanlarda həmin konsepsiya Prezident Administrasiyasına təqdim ediləcək. Eyni zamanda, ölkə başçısının tapşırığına əsasən, istismara qəbul edilmiş çoxmərtəbəli yaşayış binalarında yerləşən mənzillərin qeydiyyata alınması sahəsində bilavasitə ünvanlarda sakinlərin çıxarışlarının verilməsi işlərinə başlanıb və davam etdirilir.

Fərdi yaşayış evlərinin sənədləşdirilməsi ilə bağlı konsepsiya hazırlanması barədə fikir bildirən iqtisadçı-ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ehtimal olunur ki, yeni hazırlanacaq konsepsiyada torpaqların təyinatının dəyişdirilməsi məqamları olacaq, eyni zamanda, mənzillərin elektron qaydada qeydə alınması nəzərə alınacaq: "Həmçinin, konsepsiyada neft şirkətinin ərazisində, yüksək gərginlikli elektrik dirəyinin altında yerləşən və ya strateji əhəmiyyətli kəmərlərin ətrafında qanuna uyğun olmayan formada tikilmiş mənzillərin köçürülməsi, bunun kompensasiya olunması ilə bağlı olaraq müəyyən detallar öz əksini tapacaq. İstənilən halda, belə bir konsepsiyanın hazırlanması kifayət qədər əhəmiyyətli məsələdir. Çünki müxtəlif hesablamalara görə, ölkədə təxminən 450-500 min sənədsiz fərdi yaşayış evi var. Nəzərə almaq lazımdır ki, orta statistik Azərbaycan ailəsi 4 nəfərdən ibarətdir. Bu isə onu deməyə əsas verir ki, təxminən 1,7-2 milyon arasında vətəndaş qeyri-rəsmi yaşayış məskənlərində məskunlaşıb. Onlar öz hüquqlarından da istifadə edə bilmirlər. Hazırda həmin mənzillərin qeydiyyatsız olması qeyd olunan kateqoriyaya aid olan şəxslər üçün ciddi problemlərdən biridir".

Həmsöhbətimiz onu da vurğuladı ki, sənədsiz fərdi evlərdə yaşayan şəxslər əsasən aztəminatlı ailələrdir: "Orta gəlirli ailələr bu kimi hallara diqqət edir. Ancaq aztəminatlı ailələr məcburiyyət qarşısında qalıb həmin evlərdə yaşayırlar. Bu səbəbdən də konsepsiya hazırlanan zaman torpaqların təyinatının dəyişdirilməsinə qərar verilməlidir. Ümid edirəm ki, hazırlanacaq konsepsiya əhatəli olmaqla, əvvəlki dövrlərdə qəbul edilən qərarlardan fərqli olaraq, problemin əhəmiyyətli hissəsinin həllinə şərait yaradacaq".

***Günel CƏLİLOVA***

---

**Sürətli iqtisadi inkişaf şəraitində Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də xarici borcların həcminin azaldılmasıdır. Bu istiqamətdə müəyyən edilən strategiya və həyata keçirilən tədbirlər artıq öz nəticələrini verir. Maliyyə Nazirliyinin məlumatına əsasən, cari il yanvarın 1-də Azərbaycanın xarici dövlət borcu 8 milyard 927.1 milyon ABŞ dollarına və ya 15 milyard 176.0 milyon manata bərabər olub.**

# Azərbaycan xarici borc məsələsində MDB-də iki ən yaxşı ölkədən biri - qalan ölkələr ÜDM-nin yarısını borcludur...




Nazirlik bildirir ki, xarici dövlət borcunun Ümumi Daxili Məhsulda (ÜDM) olan nisbəti 19 faiz təşkil edib: "Borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanəti ilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib. Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyy?l?şm? proqramları üçün cəlb edilmiş kreditl?rd?n, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir".

Qeyd olunan rəqəm Azərbaycanın xarici borcunun azaldığı anlamına gəlir. Belə ki, bir il əvvəl ölkənin xarici dövlət borcu 9 milyard 398.3 milyon ABŞ dolları olmuşdu. Beləliklə, xarici borc azalır, alınan son borclar isə əsas etibarı ilə infrastruktur layihələrinə sərf olunur. Həmin layihələrin işə düşməsi isə ölkəyə xarici borcları daha tez qaytarmaq imkanı yaradır. Ümumiyyətlə, xarici borc məsələsində Azərbaycan nümunəvi bir mövqe nümayiş etdirir və borc həcminin bundan sonra daha sürətlə azalması gözlənir. Bunu beynəlxalq maliyyə qurumları da açıq etiraf edir. Məsələn, Rusiyanın "Sberbank Investment Research" analitiklərinin hazırladığı "CIS Market Daily" adlı hesabatda göstərilir ki, Azərbaycanın sürətli iqtisadi inkişafı ona xarici borc məsələsində də əlverişli mövqeyə yüksəlmək imkanı qazandırır: "Azərbaycan iqtisadiyyatı xarici amillərə qarşı dayanıqlı olacaq və ölkənin ümumi daxili məhsulu (ÜDM) 2019-cu ildə 3,2%-ə qədər sürətlənəcək. Azərbaycan hökuməti "maliyyə yastığını" artırmaq və 2018-ci ildə xarici borcu azaltmaq üçün neftin bahalaşmasından istifadə edib. Büdcə profisitlə icra edilib, Azərbaycan Dövlət Neft Fondunun aktivləri artıb və biz gözləyirik ki, cari ildə həmin hadisələr təkrarlanacaq. Belə vəziyyətdə ölkənin xarici borcları tədricən azalacaq. Çünki hökumət və dövlət şirkətləri xarici borcun yerli borcla əvəz edilməsinə çalışır".

Daha əvvəl isə "Moody's" beynəlxalq reytinq agentliyi də bu xüsusda ölkəmiz barədə nikbin proqnozlar səsləndirib. Qurum bu xüsusda bildirib:"Bu il Azərbaycanın cari əməliyyatlar hesabında profisit ÜDM-in 10,7%-nə bərabər olacaq. Bu, MDB ölkələri arasında ən yüksək göstəricidir. Azərbaycanın xarici dövlət borcunun səviyyəsi MDB ölkələri arasında ən aşağı göstəricilərdəndir. Azərbaycan və Rusiya istisna olmaqla, MDB ölkələrində xarici borcun səviyyəsi ÜDM-in 50%-dən yüksəkdir". Sənəd müəllifləri bəyan ediblər ki, hökumətin xalis maliyyə aktivləri ilə bağlı yeni fiskal qaydaların tətbiqi üçün cəhdləri ölkənin xalis kreditor statusunu qoruyub saxlaya bilər.

Onu da xatırladaq ki, bu il üçün nəzərdə tutulan büdcəyə görə, dövlət borclarının qaytarılması üçün 2 milyard 334,8 milyon manat ayrılıb. Bu, 2018-ci illə müqayisədə 72 milyon manat, yaxud 3,2% çoxdur. Görülən tədbirlər nəticəsində qarşıdakı dövrdə xarici dövlət borcunun səviyyəsinin ümumdaxili məhsula olan nisbəti daha da endiriləcək. Azərbaycanın xalis maliyyə aktivlərinin yüksək olması isə ölkəyə borcu birdəfəyə bağlamaq imkanı da verir. Burada ən önəmli faktorlardan biri də budur ki, Azərbaycan xaricdən kredit alışını, demək olar ki, dayandırıb. Belə vəziyyətdə xarici borc məsələsində Azərbaycan daha uğurlu manevr etmək imkanı qazanır. Digər tərəfdən xatırladaq ki, bir müddət əvvəl dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" təsdiq edilib. Burada da əsas məqsədlərdən biri xarici borcun tədricən azaldılmasıdır. Belə ki, 2025-ci ildə Azərbaycanda xarici dövlət borcunun məbləğinin 2018-ci illə müqayisədə 9,7 milyard dollardan 6,5 milyard dollaradək azalması nəzərdə tutulur. Bu, ÜDM-də borc səviyyəsinin indiki 19 faizdən 12 faizədək azalması deməkdir. Hazırda 46 milyard dollar təşkil edən valyuta ehtiyatları isə borc məsələsində Azərbaycana yeni manevr imkanları qazandırır. Digər tərəfdən, dövlət zəmanəti altında götürülmüş xarici kreditlər iqtisadiyyatın real sektoruna yönəldilib ki, bu da son nəticədə Azərbaycan iqtisadiyyatının artım templərinin yüksəlməsinə səbəb olacaq. Onu da qeyd edək ki, xarici dövlətlərin də ölkəmizə borcu var. Elə bundan irəli gəlir ki, xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlərdən 2019-cu ildə dövlət büdcəsinə 69 milyon 148 min manat daxil olacaq. Məlumat üçün qeyd edək ki, 2018-ci ilin dövlət büdcəsində Azərbaycanın verdiyi borclar üzrə daxilolmalarının həcmi 68 milyon 529 min manat göstərilib. Hazırda Serbiya, Belarus və Gürcüstanın Azərbaycan tərəfindən verilmiş kreditlər üzrə borc öhdəliyi var. Proqnozlara görə, xarici dövlətlər Azərbaycana olan borclarını ödəməkdə davam edəcək və 2022-ci ilə qədər bu aşağıdakı həcmdə olacaq: 2020-ci ildə 67 milyon 594 min manat, 2021-ci ildə 65 milyon 348 min manat və 2022-ci ildə 62 milyon 631 min manat. Bütün bunlar ölkənin iqtisadi müsəvidə həyata keçirdiyi siyasətin mühüm uğurları hesab edilir.

***Tahir TAĞIYEV***

**Amerika Erməni Assambleyasının həmsədri Van Krikoryan ABŞ Konqresinin Nümayəndələr Palatasının alt komitəsinin iclasında 2020-ci ildə Ermənistanda demokratiya və iqtisadiyyatın təşviqi ilə bağlı 100 milyon dollar ayırmağa çağırıb.**

# ABŞ Erməni Assambleyası iki saxta arqumentlə Konqresdən Ermənistan üçün 100 milyon qopara biləcəkmi...




*"Ümid edirəm ki, Tramp administrasiyası ABŞ-ın milli maraqlarından çıxış edərək, bu çağırışa müsbət reaksiya verməyəcək"*

***Arzuxan Əlizadə:** "İndiyə qədər edilən yardımlar Ermənistanda iqtisadiyyatın və demokratiyanın inkişafına gətirib çıxarmayıb"*

O, həmçinin, xarici strateji maliyyələşdirmə və beynəlxalq hərbi təhsil sahəsində ən azı 10 milyon dollar ayırmağı istəyib. V.Krikoryan iddia edib ki, daha böyük miqdarda olan tələbi ötən il Ermənistanda baş verən dəyişikliklər müəyyənləşdirib: "Ermənistan Suriya və Yaxın Şərqdə xristianlar üçün təhlükəni nəzərə alaraq həmin qaçqınların öz ölkəsində təhlükəsizliyini təmin edib. Biz bununla bağlı ABŞ-ın 20 milyon dollar ayırmasını xahiş edirik. Ən nəhayət, Dağlıq Qarabağa 25 milyon dollar ayrılmasını xahiş edirik. Hansı ki, regionda demokratiyanın "nümunəsidir".

Göründüyü kimi, Amerika Erməni Assambleyası, hər zaman olduğu kimi, ABŞ-ı aldadaraq bu ölkənin vəsaitlərini yardım adıyla Ermənistana yönəltmək istəyir. Erməni lobbisini təmsil edən bu qurum iddia edir ki, guya sözügedən vəsait Ermənistanda iqtisadiyyatı və demokratiyanı təşviq edəcək. Digər tərəfdən, guya Ermənistan Suriya qaçqınlarına böyük kömək göstərib. Əslində, Ermənistan həmin qaçqınları öz ərazisində məskunlaşdırmayıb. Ermənistan Suriya qaçqınlarını qanunsuz olaraq Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşdırıb. Bu isə beynəlxalq hüquq normalarının açıq-aşkar pozulmasıdır. Digər bir tərəfdən, illərdir ABŞ Ermənistana müxtəlif formada maliyyə yardımı göstərir, amma bu yardımlar indiyə qədər bir ölkədə demokratiyanın inkişafına töhvə verməyib. Bundan sonra da hansısa yardım olarsa, yenə bu ölkədə vəziyyət dəyişməyəcək. Çünki ötən il aprelində 20 illik xunta rejiminə son qoyulsa da, praktiki olaraq, bu sahədə vəziyyət dəyişməyib. Paşinyanın populist açıqlamaları söz olaraq qalır. Ölkədə keçirilən etiraz aksiyaları polis zorakılığına məruz qalır. Hakimiyyət dəyişikliyindən sonra deputat qətlə yetirilib. O üzdən, Ermənistana bu yöndə yardımların edilməsi ilə bağlı çağırışların əsası yoxdur.

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Birləşmiş Ştatlardakı erməni lobbisi zaman-zaman bu yöndə səylərini artırıb: "Bir sıra hallarda Konqres erməni lobbisinin təsiri altına düşərək Ermənistanın maraqlarına uyğun qərarlar qəbul edir. 1992-ci ildən indiyə qədər ABŞ Ermənistana 1 milyard dollardan çox yardım göstərib. Ancaq edilən yardımların çoxu Ermənistandakı korrupsioner rejimlər tərəfindən mənimsənilib. Bu, Levon Ter-Petrosyanın dövründə də belə idi, ondan sonrakı dövrdə də. Yəni indiyə qədər edilən yardımlar Ermənistanda iqtisadiyyatın və demokratiyanın inkişafına gətirib çıxarmayıb. Ötən il Ermənistanda baş verən "məxməri inqilab" kimisə aldatmamalıdır. Paşinyan bir ilə yaxındır hakimiyyətdə olsa da, əslində, ucuz populizmlə məşğuldur. Ona görə də ABŞ Cənubi Qafqazdakı maraqlarını nəzərə alaraq bundan çəkinməlidir. Erməni lobbisinin hər çağırışına müsbət reaksiya verməklə Birləşmiş Ştatların maraqlarına zərbə vura bilər. Ermənistan Suriyadan olan xiristian qaçqınları öz ölkəsində məskunlaşdırırsa, o zaman ortaya real statistika qoysun. Bu yoxdur. Ermənistan qanunsuz olaraq erməni əsilli Suriya vətəndaşlarını işğal olunmuş Dağlıq Qarabağda, əsasən də ətraf rayonlarda məskunlaşdırır. Bunu Ermənistanın uğuru kimi təqdim etmək, ən azından, beynəlxalq hüquqa hörmətsizliyin göstəricisidir. Kim zəmanət verə bilər ki, Paşinyan rejimi ediləcək maliyyə yardımlarını öz məqsədləri naminə mənimsəməyəcək? Ona görə də hər edilən çağırışa ciddi yanaşmaq doğru olmaz. Ümid edirəm ki, Tramp administrasiyası ABŞ-ın milli maraqlarından çıxış edərək bu çağırışa müsbət reaksiya verməyəcək".

***Vidadi ORDAHALLI***

---

**Ermənistanda insan hüquq və azadlıqlarının pozulması, uşaqlara və qadınlara qarşı zorakılıq hallarının kütləvi hal alması kimi məsələlər geniş yayılıb. Bu kimi faktlar vaxtaşırı olaraq beynəlxalq qurumların hazırladıqları hesabatlarda öz əksini tapır.**

# ABŞ Dövlət Departamenti Ermənistanda qadın və uşaq siyasətini yıxıb sürüdü...



*"Ermənistanda uşaqlara və qadınlara qarşı həyata keçirilən müxtəlif zorakılıq hallarını, cinayətləri hüquq-mühafizə orqanları heç qeydiyyata belə almırlar"*

***Əliməmməd Nuriyev:** "ABŞ Dövlət Departamentinin hesabatında da belə faktların göstərilməsi..."*

ABŞ Dövlət Departamenti ölkələr üzrə insan hüquqlarına dair illik hesabatını dərc edib. Dövlət Departamentinin illik hesabatında Ermənistanda qadınlara və uşaqlara qarşı zorakılığın geniş yayıldığı qeyd olunur. Sənəddə yer alan məlumata görə, məişət zorakılığı hallarına zorakılığa dair ümumi nizamnamələr çərçivəsində baxılsa da, məsul orqanlar məişət zorakılığı ilə bağlı ittihamlar üzrə effektiv araşdırma və cinayət işi aparmırlar. "Polis əməkdaşları, xüsusilə də İrəvan xaricində, belə hallarla bağlı tədbir görmək niyyəti göstərmir və qadınları şikayət verməkdən çəkindirirlər"-deyə sənəddə vurğulanır.

ABŞ Dövlət Departamentinin hesabatına görə, cinsi zorakılıq da daxil olmaqla, zorakılıq qurbanı olan uşaqlar üçün rəsmi göndəriş prosedurları mövcud olmayıb və İrəvanda uşaqlarla işləyən mütəxəssislər üçün bu göndəriş formaları məcburi hesab edilməyib.

Tanınmış hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə bildirdi ki, bu halın geniş yayılması və cinayəti törədənlərin cəzasız qalması Ermənistan hakimiyyətində kriminal qruplaşmaların təmsil olunması ilə bağlıdır. "Ermənistanda bu gün də idarəçilikdə çox ciddi problemlər, xaos var. Burada müxtəlif qurumlar arasında ziddiyyətlər getgedə dərinləşir. Eyni zamanda, Sarkisyanın komandası hələ də hakimiyyətin müxtəlif qollarında öz fəaliyyətini davam etdirir. Yeni gələn hakimiyyət də təcrübəsizdir. Əlbəttə, bütün bunlar bu kimi proseslərin davam etməsinə şərait yaradır. Yeri gəlmişkən deyim ki, hər zaman Ermənistanda cinayətkarlıq səviyyəsi yüksək və bu cinayətlərin üstünün açılması səviyyəsi isə çox aşağı olub. Ermənistanda klan hakimiyyətidir və Qarabağ klanı uzun müddət orada hakimiyyətdə təmsil olunub. Buna görə də onlar üçün əsas məsələ Ermənistanda cinayətkarlığın kökünü kəsmək, uşaqlara və qadınlara qarşı zorakılığın qarşısını almaq yox, var-dövlət toplamaq idi. Demək olar ki, bu ölkənin hüquq-mühafizə orqanları da kriminal qruplaşmalarla sıx əlaqədədir. Bu baxımdan, Ermənistanda uşaqlara və qadınlara qarşı həyata keçirilən müxtəlif zorakılıq hallarını, cinayətləri hüquq-mühafizə orqanları heç qeydiyyata belə almırlar. Əgər hüquq-mühafizə orqanları zorakılıqla bağlı şikayətləri qeydə alsalar, mütləq o cinayətlərin üstünü açmağa məcburdurlar. Onlar isə buna maraq göstərmirlər" - deyə Ə.Nuriyev qeyd etdi.

Ə.Nuriyev, həmçinin, vurğuladı ki, bu ölkənin iqtisadiyyatının çökməsi, işsizliyin tüğyan etməsi, əhalinin kasıblığı da Ermənistanda uşaqlara və qadınlara qarşı ən müxtəlif tərkibli cinayətlərin baş verməsini şərtləndirən amillərdən biridir. "Bu ölkədə iqtisadi vəziyyətin ağır olması, işsizlik kimi amillər müxtəlif cinayətlərin, eləcə də uşaqlara və qadınlara qarşı zorakılıq əməllərinin artmasına gətirib çıxarır. Çünki burada iş yerləri yoxdur və insanların yaşayışının təmin olunması məsələsi hökuməti maraqlandırmır. Bu da cəmiyyətdə gərginliyin artmasına səbəb olur, kriminal hadisələr baş verir və bundan da ən çox qadınlar və uşaqlar zərər çəkir. Biz Ermənistanda belə halların bundan sonra da şahidi olacağıq. ABŞ Dövlət Departamentinin hesabatında da belə faktların göstərilməsi, Ermənistanda baş verən bu kimi halların həmin sənəddə yer alması tam təbiidir. Çünki real situasiya bundan ibarətdir" - deyə müsahibimiz qeyd etdi.

***İradə SARIYEVA***

Məlum olduğu kimi, ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatı ciddi rezonansa səbəb olub. Azərbaycan tərəfi hər zaman həmsədrləri konkret bəyanatlar verməməkdə, yəni ünvan göstərməməkdə günahlandırırdı. Etiraf edək ki, həmsədrlərin son bəyanatında kifayət qədər konkret məqamlara toxunulub.

# Həmsədrlər ünvanlı Qarabağ bəyanatları üslubuna nə vaxt keçəcək - Ermənistan son bəyanatı qəti özünə aid etmək istəmir...



Həmin detalların kimə aid olduğu adla deyilməsə də, tərəflər və ya münaqişə ilə yaxından tanış olanlar hansı bəndin kimə ünvanlandığını asanlıqla müəyyən edə bilər. Ancaq maraqlıdır ki, münaqişə tərəflərinin hər iki rəsmi qurumunun bəyanatında həmsədrlərin eyhamlarının məhz qarşı tərəfə ünvanlandığı qeyd edilir. Bəyanata ilk reaksiyanı verən Azərbaycan XİN oldu. Həmin bəyanatda bildirildi ki, Minsk Qrupunun həmsədrlərinin bu bəyanatı Ermənistana verilən bir siqnaldır: "Prezident İlham Əliyev Minsk Qrupunun həmsədrlərini qəbul edərkən ölkəmizin mövqeyini onların diqqətinə çatdırmışdı. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Danışıqların formatı dəyişilməz olaraq qalır. Ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi və formatın dəyişdirilməsi cəhdləri qəbuledilməzdir.

Həmsədrlərin bəyanatında, həmçinin, münaqişənin həlli ilə əlaqədar atılmalı olan addımlar da qeyd edilir. Burada ilkin addımlardan biri kimi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətrafındakı ərazilərin işğaldan azad edilməsi və bu ərazilərdən zorla qovulmuş məcburi köçkünlərin geri qayıtması nəzərdə tutulur. Dağlıq Qarabağın statusuna gəldikdə isə, bu, Azərbaycanın ərazi bütövlüyünə xələl gətirmədən müzakirə mövzusu ola bilər. Azərbaycan bu xüsusda mövqeyini dəfələrlə açıqlayaraq bildirib ki, Dağlıq Qarabağın statusunu bu bölgənin hər iki icması - azərbaycanlı və erməni icması ölkəmizin ərazi bütövlüyü çərçivəsində müəyyən etməlidir. Məlum olduğu kimi, xalqların öz müqəddəratını təyinetmə prinsipi dövlətlərin ərazi bütövlüyü prinsipini pozmamalıdır. Həmsədrlərin bəyanatında da Helsinki Yekun Aktı əsas tutulur. Bu sənəddə qeyd olunur ki, "xalqların öz müqəddəratını təyin etməsinə hər zaman BMT Nizamnaməsinin prinsip və məqsədləri, beynəlxalq hüququn müvafiq normaları, o cümlədən dövlətlərin ərazi bütövlüyünə uyğun olaraq hörmət edilir".

Maraqlıdır ki, Ermənistan XİN adından yayılan bəynatda da həmsədrlərin mövqeyindən razılıq ifadə olunurdu. Onlar daha çox hərbi ritorika ilə danışıqdan çəkinməklə bağlı tövsiyənin sırf Azərbaycana aid olduğunu qabartmağa çalışırlar. Düzdür, Azərbaycanın bəyanatlarında hərbi ritorika ola bilər. Amma bu heç də Ermənistan rəsmilərinin hədələrindən çox nəzərə çarpmır. Azərbaycanın danışıqlar fayda verməyəcəyi təqdirdə hərbi yolla torpaqlarını işğaldan azad edəcəyini deməyə tam haqqı və hüququ çatır. Amma bir işğalçı ölkənin isə belə bəyanatlar verməsi birbaşa danışıqları pozmağa və mövcud status-kvonu dəyişməz olaraq saxlamağa yönəlib. Bu səbəbdən də yaxşı olardı ki, həmsədrlər bəyanatlarındakı konkretliklə yanaşı, ünvanı da dəqiq göstərsinlər. Bu, tərəflərin və dünya ictimai rəyinin çaşqınlığa düşməsinin qarşısını almış olardı. Məsələn, ünvanlı olaraq qeyd olunardı ki, Ermənistan işğal edilmiş əraziləri boşaltmalıdır. Və ya Ermənistanın təklif etdiyi format dəyişikliyi düzgün deyil.

**Hətta Azərbaycanla da bağlı müəyyən iradların ünvanlı olması yaxşı olardı ki, Ermənistan üçün manipulyasiyaya yer qalmasın. Hər halda, ümid edək ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətində bu irəliləyişin də şahidi olacağıq.**

***Məhəmmədəli QƏRİBLİ***

---

Baş nazir Nikol Paşinyanın Ermənistanda aparmaq istədiyi islahatlar, həmişə olduğu kimi, cəmiyyətin etirazları ilə müşayiət olunur. O, Baş nazir olandan sonra bir sıra struktur və digər islahatlar keçirməyə cəhd göstərsə də, faktiki olaraq, səyləri alınmır.

# Lombardçıların və eksçeynclərin Paşinyana qarşı üsyanı başladı...



*"Gedən proseslər Ermənistanda ciddi sosial partlayışların baş verməsinə zəmin yaradır"*

Çünki Paşinyanın aparmaq istədiyi islahatların real əsası yoxdur. Ən azından, Ermənistanın mövcud maliyyə resursları buna imkan vermir. İslahat aparan ölkənin ya özünün maliyyə resursları olmalıdır, ya da xarici donorlardan vəsait cəlb etməlidir. Bunların heç birinə Ermənistan sahib deyil. Buna baxmayaraq, Paşinyan hakimiyyəti qanunvericiliyə bəzi dəyişikliklər etmək istəyir. Bu da əhalinin etirazlarına səbəb olur.

Vəziyyət o yerə gəlib çatıb ki, lombard işçiləri və valyutadəyişmə məntəqələrinin əməkdaşları artıq üsyana başlayıblar. Onlar İrəvanda hökumət binasının qarşısında aksiya keçirərək "Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklərə etiraz ediblər. Bundan əvvəl də, yəni martın 11-də lombard işçiləri və valyutadəyişmə məntəqələrinin əməkdaşları etiraz aksiyası keçiriblər. Etirazların kökündə o dayanır ki, "Dövlət rüsumu haqqında" Qanuna son

***Elçin Mirzəbəyli:** "Paşinyanın bu günə qədər maliyyə islahatlarına dəstək adı ilə etdiyi cəhdlər səmərə verməyib"*

dəyişiklikdən sonra vergilər 60 dəfə artırılıb. Belə ki, lombardlar üçün müəyyən olunmuş 100 min dramlıq vergi 6 milyon drama, mübadilə məntəqələri üçün nəzərdə tutulmuş 50 min dram vergi isə 3 milyon drama qədər artırılıb. Zəif iqtisadiyyata malik olan Ermənistan üçün bu cür vergi artımları çox böyük rəqəmdir.

Digər tərəfdən, Azərbaycanda da bir sıra islahatlar aparılır. Ancaq hələ indiyə qədər ölkədə aparılan islahatlara cəmiyyətin müxtəlif təbəqələri və ictimai təşkilatlar etiraz etməyiblər. Bütün bunları ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, Ermənistanda Paşinyan iqtidarının gördüyü işləri islahat adlandırmaq olmaz: "O üzdən, cəmiyyət maliyyə islahatlarına ciddi müqavimət göstərir. Bütün bunlar təsadüfi deyil. Təkcə bu ilin bir ayı ərzində Ermənistanın valyuta ehtiyatları 1 milyard 250 milyon dollar azalıb. Reallıq onu göstərir ki, Ermənistanın valyuta ehtiyatları əhəmiyyətli dərəcədə azalıb. Bu isə, faktiki olaraq, Ermənistan dövlətinin maliyyə cəhətdən iflası deməkdir. Nəzərə almaq lazımdır ki, Ermənistanın xarici borcu 7 milyard dollardan artıqdır. Ermənistanın xarici borcu ölkənin valyuta ehtiyatlarını dəfələrlə üstələyir. Paşinyanın bu günə qədər maliyyə islahatlarına dəstək adı ilə etdiyi cəhdlər səmərə verməyib. Onun həm Rusiya, həm də Avropa İttifaqı ilə apardığı danışıqlar nəticə vermədi. Heç bir tərəf iqtisadi cəhətdən perspektivi olmayan ölkəyə vəsait ayırmaq niyyətində deyil. Gedən proseslər Ermənistanda ciddi sosial partlayışların baş verməsinə zəmin yaradır. Çünki Paşinyanın indiyə qədər verdiyi sosial vədlərin heç biri yerinə yetirilmədi. Bunun əvəzində kəmərbərkitmə siyasəti həyata keçirilir. Hökumət onsuz da acınacaqlı bir durumda olan Ermənistan vətəndaşlarının vəziyyətini iqtisadi baxımdan daha da acınacaqlı vəziyyətə gətirib. Ümumiyyətlə, Ermənistanı hansısa müstəvidə Azərbaycanla müqayisə etməzdim, o cümlədən, maliyyə müstəvisində. Çünki Azərbaycan nəinki regionda, həmçinin, dünyada iqtisadi müstəvidə mühüm rol oynayır. Azərbaycan nəqliyyat və enerji dəhlizlərinin diversifikasiyasında dünyaya mühüm töhfələr verir. Ermənistan bütün bunlardan uzaq bir ölkədir. Ən başlıcası, Azərbaycanda həyata keçirilən islahatlar sosial baxımdan sığortalanıb. İslahatların konseptual əsasları hazırlanıb. Hökumət hansı addımı nə zaman, necə atacağını kifayət qədər yaxşı bilir. Bununla yanaşı, Prezident İlham Əliyevin bilavasitə göstərişləri ilə müvafiq sosial proqramlar həyata keçirilir. Ardıcıl olaraq əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi ilə bağlı ciddi addımlar atılır. Azərbaycanda yeni-yeni sosial paketlər ortaya qoyulur. Ona görə də ölkədə aparılan islahatlar hansısa etiraza səbəb olmur. Ancaq Ermənistanda bunların heç biri yoxdur.

Belə olan halda, Ermənistan cəmiyyətinin müxtəlif təbəqələri Paşinyanın gördüyü işlərə sərt reaksiya verir. Belə getsə, Ermənistanda kütləvi iğtişaşların baş verməsi qaçılmazdır".

***Vidadi ORDAHALLI***

BAKI XƏBƏR 8 16-18 mart 2019 № 51 (3949)


# Zurabişvilinin səfərində Ermənistanı pərt edən ciddi məqam - ərazi bütövlüyü barədə Bakıda dediyi sözlərdən dönmədi...

**Azərbaycan ərazilərinin bir hissəsini hələ də işğal altında saxlayan Ermənistanın qonşu Gürcüstana da torpaq iddialarının olması heç kimə sirr deyil. Bundan başqa, Tiflis üçün Ermənistanın yaratdığı əsas problemlərdən biri də Azərbaycanın zəbt edilmiş ərazilərində yaradılan separatçı rejimin Abxaziya və Cənubi Osetiya kimi qondarma qurumlarla qurduğu əlaqələrdir.**



Tiflis yaxşı bilir ki, Qarabağdakı separatçı rejim İrəvanın nəzarəti altındadır və bu da o deməkdir ki, əslində Abxaziya və Cənubi Osetiya ilə əlaqəni Ermənistan özü yaradır. Bütün bunlar Gürcüstan prezidenti Salome Zurabişvili tərəfindən Ermənistan parlamentinin sədri Ararat Mirzoyanla görüşü zamanı açıq şəkildə bəyan edilib. Zurabişvili vurğulayıb ki, Dağlıq Qarabağ separatçılarının Abxaziya və Cənubi Osetiyaya səfər etmələri, eyni zamanda, bu münaqişələrin eyni və simmetrik olması barədə danışmaları Gürcüstan üçün çox kədərli və ağrılı məsələdir.

Gürcüstanın dövlət başçısı onu da bildirib ki, bu münaqişələr regionumuzun birgə inkişafını məhdudlaşdırır: "Gürcüstanın işğal altında olan iki ərazisi var və biz ölkənin maraqları barədə danışırıqsa, o zaman bizim üçün əsas və yeganə maraq ondan ibarətdir ki, bizim suverenliyimiz və ərazi bütövlüyümüz yalnız sözdə deyil, faktiki olaraq da tanınmalıdır. Hesab edirəm ki, biz bu münaqişələrin beynəlxalq normalar əsasında həllində yeni mərhələyə nail olunması üçün birgə çalışmalıyıq". Dövlət başçısı qeyd edib ki, Gürcüstan ərazisində olmayan münaqişə ölkədə yaşayan azərbaycanlılar və ermənilər üçün də çox ağrılıdır: "Bu münaqişə Gürcüstan ərazisinə keçsə, ölkə üçün dağıdıcı ola bilər. Buna görə də bütün münaqişələr sülh yolu və beynəlxalq normalar əsasında həllini tapmalıdır".

Ermənistanda məsələyə gürcü tərəfinin belə yanaşmasını İrəvan üçün növbəti diplomatik məğlubiyyət sayırlar. Qeyd edək ki, bu xüsusda Rusiyanın "Kommersant" qəzeti də maraqlı yazı yayıb. Qəzet yazır ki, Salome Zurabişvilinin sərt mövqeyi Gürcüstanın bütün postsovet dövrü ərzində Ermənistan-Azərbaycan münaqişəsinin tərəflərinə münasibətdə sərgilədiyi "bərabər uzaqlıqda" siyasətinə son qoya bilər. Bildirilir ki, İrəvanda Salome Zurabişvilini qəbul edən Ermənistan rəhbərliyini qonşu dövlətin başçısının Bakıda verdiyi heç də birmənalı olmayan bəyanatı ilə bağlı izahatı xüsusilə maraqlandırırdı. Azərbaycana rəsmi səfəri çərçivəsində fevralın 27-də xanım Zurabişvili Azərbaycan və Gürcüstan ərazilərinin işğalı mövzusuna toxunmuşdu. Onun Gürcüstanın muxtar vilayətləri olan Cənubi Osetiya ilə Abxaziyanın Rusiya tərəfindən işğalı barədə söylədikləri heç kimi təəccübləndirmədi. Belə ki, Gürcüstan rəhbərləri teztez Moskvanın ünvanına bu cür ittihamlarla çıxışlar edirlər. Lakin bu dəfə Gürcüstan prezidenti ilk dəfə açıq şəkildə Ermənistanı Dağlıq Qarabağın və ona bitişik bir sıra ərazilərin işğalında ittiham etdi.

"Kommersant"ın bildirdiyinə görə, İrəvandakı görüşlərdə, o cümlədən Ermənistan prezidenti Armen Sarkisyanla və baş nazir Nikol Paşinyanla görüşdə Salome Zurabişvilinin Bakı bəyanatları mövzusu müxtəlif kəskinliklə qaldırılıb. Lakin Gürcüstan prezidenti özünə bəraət qazandırmağa, yaxud da bəyanatını ört-basdır etməyə çalışmayıb. Əksinə, o, erməni tərəfinin ünvanına bir sıra iradlarla çıxış edib. Xüsusən də Ararat Mirzoyanla görüş zamanı Salome Zurabişvili xəbərdarlıq edib: onun ölkəsi üçün Ermənistan tərəfindən Gürcüstanın ərazi bütövlüyünün sözdə deyil, əməldə tanınması çox vacibdir. Dövlət başçısı dərhal izahat verib ki, Dağlıq Qarabağın nümayəndə heyətlərinin Abxaziyaya və Cənubi Osetiyaya səfərlərini nəzərdə tutur: "Bu çox təəssüf doğuran və ağrılı haldır. Biz hesab edirik ki, burada (Ermənistanda - "Kommersant") ölkəmizə münasibətdə olmalı olduğu qədər xoş niyyət yoxdur".

Erməni politoloq Hayk Martirosyan bildirir ki, "Kommersant"ın məsələyə yanaşması düzgündür və Ermənistanın növbəti dəfə Azərbaycana uduzduğunu göstərir: "Bunlar Paşinyanın səhv, yanlış xətt üzərində olmasından qaynaqlanır. Gürcüstan artıq bitərəf mövqe səgiləmir və Azərbaycanı Qarabağ məsələsində daha açıq müdafiə edir. Rusiyadan sonra biz Gürcüstanı da itiririk". Onun fikrincə, ümumiyyətlə, Paşinyan Qarabağ məsələsində böyük səhvə yol verir və özünün təxəyyül məhsulları ilə daha çox qarışıqlıq yaratmağa davam edərək böyük bir səhv edir. Erməni politoloq bildirir ki, Paşinyan həddindən artıq səhv yoldadır: "Onun niyyətləri yaxşı olsa da, tutduğu yol pisliyə səbəb olacaq. Cəmiyyətin bu xətt üzrə hərəkətə səssiz qalması, kənardan müşayiət etməsi tarixi iflasa səbəb ola bilər. Keçmişdən qalmış həddindən artıq təhlükəli xəttin dayandırılması üçün hakimiyyətə təzyiq göstərilməsi vacibdir. Bu iqtidarı Qarabağ məsələsinə yanaşmada inqilabi dönüş etməyə məcbur etmək zəruridir. Əks halda, gələcəkdə Ermənistanı da itirə bilərik. Necə ki, tərəfdaşlırımızı itiririk".

***Nahid SALAYEV***

## Alyansın ofis rəhbərindən qəribə bəyanat...

# "Etibarlı Ermənistan" NATO-nun hansı maraqlarına cavab verir?

**"Etibarlı Ermənistan NATO-nun maraqlarına cavab verir". Bu fikirləri Cənubi Qafqaz üzrə NATO-nun əlaqələndirici ofisinin rəhbəri doktor Rosaria Puglis Ermənistanda NATO həftəsi ilə bağlı keçirilən konfransda bildirib.**



*"Bu, praqmatik düşüncədən uzaq bir yanaşmadır"*

***Fikrət Sadıqov:*** *"Ermənistanın olmayan rolunu şişirtmək, buna hansısa rəng qatmaq NATO-ya hörmət gətirmir"*

NATO baş katibinin Cənubi Qafqazdakı xüsusi nümayəndəsi Ceyms Appaturay isə alyansın Ermənistanla ardıcıl əməkdaşlığa hazır olduğunu söyləyib.

Ermənistan dövlətinin nə dərəcədə forpost, marionet bir ölkə olduğunu hamıdan çox NATO bloku rəhbərliyi bilir. Ən azından, ona görə ki, alyans bu ölkənin hansı vəziyyətdə olduğuna dair daha ciddi məlumatlara malikdir. Hansı "etibarlı" Ermənistandan söhbət gedə bilər ki, həmsərhəd olduğu 4 ölkədən 3-nə ərazi iddiası var?! Ermənistanın ərazi iddiası irəli sürdüyü ölkələrdən biri də məhz NATO üzvü olan Türkiyədir. O Türkiyə ki, "soyuq müharibə" dövründə alyans üçün müstəsna əhəmiyyətə malik olub. İndinin özündə də Türkiyənin NATO üçün əhəmiyyəti heç də az deyil.

Ermənistan isə elə bir strateji mövqeyə malik deyil. Ermənistan Rusiyanın moderatoru olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında, Avrasiya İqtisadi İttifaqında təmsil olunur. NATO-nun maraqlarına qarşı olaraq Ermənistan əsgərləri Rusiyanın rəhbərliyi altında Suriyada "sülhməramlı" fəaliyyət göstərirlər. Bunun ABŞ tərəfindən yaxşı qarşılanmadığını, hər halda, Rosaria Puglis də bilməmiş deyil. Bütün bu deyilənlərin fonunda, "etibarlı Ermənistan NATO-nun maraqlarına cavab verir" fikri nə deməkdir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bəzi NATO təmsilçiləri ötən il Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra bu ölkənin rolunu yersiz olaraq çox şişirdirlər: "Hesab edirəm ki, bu yanlış yanaşmadır. Ermənistanda NATO ilə bağlı hansısa tədbir keçirilirsə, bu heç də o demək deyil ki, sözügedən ölkə hansısa önəmli mövqeyə malikdir, yaxud da NATO buna görə Ermənistana hansısa güzəştlər etməlidir. Nəzərə almaq lazımdır ki, Ermənistanın hansısa strateji önəmi yoxdur. Eyni zamanda, yaxın və uzaq perspektivdə Ermənistanın NATO-ya üzv olmağa cəhd edəcəyi belə real görünmür. Sadəcə olaraq Ermənistanın yeni hakimiyyəti Rusiya, İran və Qərb arasında çabalayır. Bu onu göstərir ki, Ermənistanın NATO-ya hansısa fayda verəcəyini düşünmək yersizdir. Bütün bunları NATO-nun görməzdən gəlməsi təəssüf doğurur. Görünür, bu ənənəvi ikili yanaşmadan irəli gələn siyasətdir. Ermənistan heç vaxt etibarlı tərəf olmayıb və bundan sonra da olmayacaq.

Ona görə də Ermənistanın olmayan rolunu şişirtmək, buna hansısa rəng qatmaq alyansa hörmət gətirmir. Bu, praqmatik düşüncədən uzaq bir yanaşmadır. Ola bilsin ki, bəzi NATO təmsilçilərinin Paşinyan hakimiyyətindən müəyyən gözləntiləri var. Ancaq mövcud reallıq onu göstərir ki, bununla bağlı gözləntilər əbəsdir və reallığa söykənmir. O üzdən, Rosaria Puglisin Ermənistan barəsində səsləndirdiyi fikirlərlə razı deyiləm".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan-Pakistan hərbi əməkdaşlığı Ermənistan təcavüzkarlığına ağır zərbə faktoruna çevrilir

**Hərbi müstəvidə Azərbaycanın qurduğu çoxsaylı beynəlxalq əməkdaşlıq bu gün ölkəmizə böyük üstünlüklər qazandırmaqda, çoxsaylı müasir hərbi texnikanın idxalına imkan yaratmaqdadır. Bu xüsusda Azərbaycanın yaxından əməkdaşlıq etdiyi ölkələrdən biri də işğalçı Ermənistanı bir dövlət olaraq tanımayan Paksitandır.**

Azərbaycan və Pakistan arasında müxtəlif, o cümlədən də hərbi sahədə əməkdaşlıq uğurla inkişaf edir. Pakistanın "Disatch News Desk" agentliyi yazır ki, məsələ Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadənin bu ölkənin federal müdafiə naziri Pərviz Xattaq ilə görüşündə yenidən müzakirə mövzusu olub. Görüşdə Pərviz Xattaq vurğulayıb ki, Pakistan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində həmişə Azərbaycanın yanındadır və bu mövqe sonra da davam etdiriləcək. O bildirib ki, Azərbaycanın strateji mövqeyi, iqtisadiyyatının sürətlə inkişaf etməsi qardaş Pakistanı sevindirir: "Pakistan Azərbaycanla bütün sahələrdə, o cümlədən hərbi istiqamətdə əlaqələrin genişləndirilməsində maraqlıdır".

Bu arada o da bəlli olub ki, martın 23-də İslamabadda keçiriləcək hərbi paradda Azərbaycan ordusunun bir qrup hərbi qulluqçusu iştirakçı qismində çıxış edəcək. Parada Azərbaycan Ordusunun bir nümunəvi bölməsi və paraşütçüləri qatılacaq. Azərbaycan hərbçiləri ayrıca qutu şəklində tribuna önündən keçid edəcək. Paraşütçülər isə meydanın üzərində Azərbaycan və Pakistanın bayraqlarını açacaqlar. Qeyd edək ki, bu, Azərbaycan Ordusunun şəxsi heyətinin Rusiyanın Moskva və Fransanın Paris şəhərlərində İkinci Dünya müharibəsinin başa çatmasına həsr olunmuş hərbi paradlarında iştirakından sonra ölkə xaricində qatıldıqları üçüncü hərbi paraddır. Paradda yüksək səviyyəli qonaq qismində Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, eləcə də Azərbaycanın ayrı-ayrı qurumlarından nümayəndələr iştirak edəcək. Bütün bunlar bir daha iki ölkə arasında yüksək səviyyəli əməkdaşlığın mövcudluğunu təsdiqləyir.

Hazırda Azərbaycan üçün maraq doğuran əsas məqamlardan biri Pakistandan " JF Thunder" qırıcılarının alınmasıdır. Görülən tədbirlər nəticəsində yaxın tezlikdə bu qırıcıların ordumuzun ixtiyarında olması gözlənir. Elə bu da Ermənistanda ciddi təşvişə yol açmaqdadır. Erməni hərbi ekspert Vaan Ambartsumyan bu qırıcıların alınmasından sonra Azərbaycanın hərbi üstünlüyünü daha da artıracağını etiraf edir. Onun sözlərinə görə, Ermənistanın Rusiyadan 4 Su-30SM qırıcılarını alacağı məlum olan kimi Azərbaycan "Thunder JF-17 Block 2" qırıcılarının alınmasına dair Pakistanla danışıqları fəallaşdırdı.

Xatırladaq ki, bundan əvvəl də Vaan Ambartsumyan Azərbaycanın Hərbi Hava Qüvvələrinin imkanları barədə danışaraq, erməni ictimaiyyəti üçün təşviş doğuracaq informasiyalar açıqlamışdı. Bildirmişdi ki, Azərbaycan Türkiyədən aldığı SOM supermüasir hava-yer raketləri ilə İtaliyadan böyük partiyada sifariş verdiyi "Alenia Aeromachi" M-346 təlim-döyüş təyyarələrini təchiz edəcək. Bu raketlərə qarşı müdafiə vasitələri mövcud deyil və onlar Ermənistanın S-300 zenit-raket komplekslərinin özlərini asanlıqla məhv edə bilər. Ambartsumyan sensasion iddia irəli sürərək deyib ki, Azərbaycan Rusiyadan Su-30 MKM qırıcılarını da almaq istəyir və artıq öz pilotlarını bu tipli təyyarələrdə təlim keçmək üçün Əlcəzairə göndərib. İndi isə Ambarstumyan iddia edir ki, Azərbaycan neçə vaxtdır maraq göstərdiyi JF-17 qırıcılarını almaq üçün artıq müqavilə bağlayıb: "Mən deyə bilmərəm ki, onlar həmin qırıcılardan neçə vahid alacaqlar, lakin Bakı onları elə bu il almağı planlaşdırır. Mahiyyətcə bunlar Çinin FC-1 Xiaolong qırıcılarının Pakistanda yığılan variantıdır, lakin göstəriciləri yaxşılaşdırılıb. Pakistan versiyası hava döyüşünün aparılması, yerüstü, yeraltı və suüstü hədəflərin vurulması üçün nəzərdə tutulub. Onun əsas üstünlüklərindən biri budur ki, Rusiyadakı rəqibi Su-30 SM-lə müqayisədə xeyli ucuzdur, döyüş xarakteristikasına görə isə ondan heç nə ilə geri qalmır". Erməni hərbi ekspert qeyd edib ki, Pakistan qırıcılarının döyüş xarakteristikaları əsasən onda Çin istehsalı olan xüsusi asqı konteynerinin yerləşdirilməsi imkanına görə artır. Pakistanlılar isə bu asqını daha müasir və mükəmməl Türkiyə asqı konteyneri "ASELPOD"la əvəz ediblər. Ambarstumyana görə, Bakının silahlanma sahəsində son addımları, xüsusən də hava döyüş texnikası sahəsində sövdələşmələri Azərbaycanın Qarabağ məsələsini hərbi yolla həll etməyə hazırlaşdığını göstərir.

Bu arada o da məlum olub ki, Pakistan Hərbi Hava Qüvvələri "JF-17 Thunder" qırıcı təyyarəsində quraşdırılan yeni silahı da sınaqdan keçirib. Pakistanın "The Express Tribune" qəzeti yazır ki, bu uğurlu sınaqdan sonra "JF-17 Thunder" gecə və gündüz yüksək dəqiqliklə müxtəlif hədəfləri nəzarətdə saxlaya biləcək. Yeni silah pakistanlı mütəxəssislər tərəfindən quraşdırılıb. Xatırladaq ki, "JF-17 Thunder" qırıcıları "Pakistan Aeronautical Complex" və Çinin "Chengdu AircraftIndustry Corporation" şirkətlərinin birgə layihəsidir. Azərbaycan Pakistandan "JF-17 Thunder" qırıcılarını almaq üçün çoxdandır müzakirələr aparır. Bu yaxınlarda belə məlumatlar yayılmışdı ki, Bakı azı iki eskadrilyanı silahlandırmağa bəs edəcək sayda qırıcı sifariş verməyə hazırlaşır. Onu da bildirək ki, "JF-17 Thunder" yüngül qırıcılardır və xüsusən dağlıq relyefdə döyüş əməliyyatlarının aparılması üçün əlverişlidir.

Pakistan Hərbi Hava Qüvvələrinin ehtiyatda olan zabiti, hərbi ekspert Kayzer Tufayl bildirir ki, "JF-17 Thunder" qırıcıları Azərbaycan üçün çoxsaylı üstünlüklər vəd edir: "Bu təyyarələrin dağlıq ərazidəki döyüş əməliyyatlarında istifadə edilməsi ilə əlaqədar olaraq deyə bilərəm ki, onlar belə şəraitdə asanlıqla fəaliyyət göstərə bilər. JF-17-də olan KLJ-7 radarları çox səmərəlidir və yerdən müdaxiləni dəf edə bilir. Bu təyyarələrdə uçan pilotlar bu radarları F-16-nın APG-68V radarı ilə müqayisə edir və onu tərifləyirlər. Yeri gəlmişkən, JF-17 qırıcıları Türkiyənin SOM raketlərinə bənzər iki ədəd qanadlı raketi daşıya bilir. Mənim sözlərimin təsdiqi kimi, Hərbi Hava Qüvvələrinin JF-17-də quraşdırılan Pakistanın "Raad" qanadlı raketinin sınaqlarını müvəffəqiyyətlə keçirməsini göstərə bilərəm. SOM kimi, "Raad" raketi də "stels" texnologiyadan istifadə edilərək yaradılıb ki, bu da ona düşmən radarı tərəfindən aşkar edilməsinə imkan vermir. JF-17 Azərbaycan üçün ideal seçimdir. Bununla yanaşı, Azərbaycan üçün digər bir üstünlük də Pakistanın zəruri hallarda təyyarələrin texniki xidmətində yardım göstərməyindən ibarət olacaq. Hərbi əməliyyatlar baxımından bu mühüm amildir".

Lakin Azərbaycanı təkcə "JF-17 Thunder" qırıcıları maraqlandırmır. Azərbaycan Pakistandan digər hərbi texnologiya, silahlar və müdafiə təyinatlı digər məhsullar idxal etməkdə maraqlıdır.

Məlumat üçün bildirək ki, Pakistan Asiya regionunda güclü hərbi sənaye kompleksinə malik ölkələrdən biridir. Bu hərbi-sənaye kompleksi Pakistan ordusunun kiçik atıcı silahlardan tutmuş tanklara və artilleriya vasitələrinə, təyyarələrdən tutmuş ballistik raketlərə, ən müxtəlif döyüş sursatlarına qədər praktiki olaraq bütün ehtiyaclarını ödəyə bilir. Azərbaycan üçün isə Paksitanın uzaqmənzilli raketləri və hərbi təyyarələri daha çox maraq doğurur. Çünki Pakistan 2 min kilometrə qədər mənzilli ballistik raketlərə malikdir. Hazırda bu ölkə qitələrarası ballistik raket istehsalı üzərində işləyir. Pakistanın hərbi sənayesi Çin texnologiyası əsasında 300 kilometrdən 3000 kilometrədək hədəfləri vura bilən ballistik raketlər istehsal edir. Bunlara "Xətf-1", "Xətf-2", "Xətf-1A", "Xətf-4", "Xətf-9" raketləri daxildir. Bundan əlavə, Pakistan hərbi sənayesi "Babur" və "Raad" qanadlı raketləri, yüksək dəqiqlikli H-2 qanadlı raketi istehsal edir. Bu raketlərin müəyyən növlərinin idxalı Azərbaycan üçün maraqlıdır. Pakistan istehsalı olan orta mənzilli "Şahin" ballistik raketləri də çoxdan Azərbaycanı maraqlandırır.

Azərbaycan Pakistandan 750 kilometr mənzilli "Şahin-1" ballistik raketlərini almaqda maraqlı tərəf kimi çıxış edir. Qeyd edək ki, "Şahin" raketlərinin bir neçə modifikasiyası mövcuddur. Çin texnologiyasının köməyilə istehsal edilən və Hindistanla qarşıdurmada Pakistanın əsas çəkindirici elementi olan "Şahin" ballistik raketlərinin radiusu 500-600 kilometrdən 2300 kilometrə qədər dəyişir. Raketlər 700-1230 kq ağırlığında müxtəlif modifikasiyalı döyüş başlıqları daşıya bilir. Düşmənin hava hücumundan müdafiə sistemini dəf etmək üçün raketlərin döyüş başlığı hədəfə yaxınlaşanda əsas blokdan ayrılır. Raketlər 12-oxlu mobil platforma üzərində yerləşdirilib. Rusiyanın Ermənistana "İsgəndər" raketləri verməsindən sonra bu raketlərin də alınması dair müəyyən danışıqlar gedib və yaxın tezlikdə həmin raketlərin müəyyən partiyasını ölkəmizə gəlişi gözləniləndir.

Rusiyalı hərbi ekspert Pavel Felqenhauer də Paksitanın Azərbaycana raket satışını tamamilə mümkün sayır: "Pakistan Azərbaycana orta uzaqmənzilli raketlər verə bilər. Bu raketlər Rusiyanın Ermənistana verdiyi "İsgəndər" raket komplekslərinə qarşı istifadə edilə bilər". Onun sözlərinə görə, Pakistan şəxsi raket sistemlərini istehsal edir: "İstisna deyil ki, Azərbaycan və Pakistan bu raket sistemlərinin çatdırılması haqqında razılaşıb və bu raketlər Azrbaycanın hərbi mövqelərini daha da gücləndirəcək". Felqenhauer qeyd edib ki, Pakistan Azərbaycana silahı Rusiya və İsraildən daha ucuz qiymətə satacaq. Bütün bunlar Azərbaycan-Paksitan hərbi əməkdaşlığının yüksək səmərə verdiyini aydın surətdə nümayiş etdirir. Elə Ermənistanı da qorxudan məqam məhz budur. Düşmən bilir ki, zəbt edilmiş əraziləri könüllü tərk etməsə, Azərbaycan Paksitan və digər ölkələrdən aldığı, eləcə də öz istehsalı olan silahları düşmənə qarşı tətbiq etməli olacaq. Bu isə Ermənistanın sonu deməkdir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dağlıq Qarabağda ermənilər tərəfindən dağıdılan, məhv edilən və "erməniləşdirilən" tarix-mədəniyyət abidələrimiz...

**Tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağ erməni silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra qəsb edilən ərazilərimizdəki tarix-mədəniyyət, arxeoloji abidələrimizə qarşı, sözün həqiqi mənasında, soyqırım həyata keçirildi. Abidələrimizin ermənilər tərəfindən məhv edilməsi, dağıdılması, eləcə də quruluşunun dəyişdirilməsi prosesi bu gün də davam etdirilir.**

Ermənilərin abidələrimizə qarşı vandal hərəkətlərinə isə hələ indiyə kimi heç bir beynəlxalq təşkilat reaksiya verməyib. "Biz dünyadakı bütün abidələri qoruyuruq" deyə bəyanatlar verən beynəlxalq abidələrin mühafizəsi təşkilatları da məsələyə soyuqqanlı yanaşma sərgiləyirlər. Baxmayaraq ki, Azərbaycan tərəfi dəfələrlə rəsmi qaydada ermənilərin abidələrimizi dağıtması, məhv etməsi ilə bağlı məsələni beynəlxalq qurumların diqqətinə çatdırıb, bu barədə bütün aidiyyəti rəsmi görüşlərdə məlumatlar verilib, lakin daşdan səs çıxıb, o qurumlardan səs çıxmayıb. Faktiki, Azərbaycan torpaqları kimi, abidələrimiz də ermənilər tərəfindən mənimsənilir, mənimsənilə bilməyənlər isə yer üzündən silinir.

Bu gün Azərbaycanın işğal altında olan abidələrinin vəziyyəti beynəlxalq aləmi narahat etmir. Əsas məsələlərdən biri odur ki, işğal altındakı Azərbaycan ərazilərində qalan tarix-mədəniyyət abidələrinin ermənilər tərəfindən "erməni abidəsi" kimi pasportlaşdırılması olduqca ciddi problemdir. Erməni mənbələrində ayrı-ayrı vaxtlarda yer alan məlumatlara, peyk çəkilişlərinə, ATƏT-in işğal olunmuş ərazilərdəki vəziyyəti araşdıran missiyasının hesabatına, habelə digər mənbələrdən toplanan məlumatlara istinad edərək qeyd edək ki, bu ərazilərdə indiyədək yüzlərlə tarixi abidə tamamilə dağıdılıb. O da məlumdur ki, işğal altındakı Azərbaycan ərazilərində tarix-mədəniyyət abidələrinin kütləvi məhvi və saxtalaşdırılması hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında 1954-cü ildə qəbul edilən Haaqa Konvensiyasına ziddir. Bu Konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətərin qarşısında vəzifə kimi qoyur. Bundan başqa, işğal ərazilərində tarix-mədəniyyət abidələrinin dağıdılması və saxtalaşdırılması UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasının pozulması deməkdir. Bildiyimiz kimi, Azərbaycanın tələbi əsasında ATƏT iki dəfə işğal altındakı ərazilərdəki vəziyyəti öyrənmək üçün missiya təşkil edib, bu zaman tarixi abidələrin vəziyyəti də qismən araşdırılıb. Bununla belə, Ermənistan UNESCO-nun işğal altındakı ərazilərdə tarixi abidələrin vəziyyətini öyrənmək üçün bitərəf missiya göndərməsinin qarşısını alıb. Azərbaycanın Mədəniyyət Nazirliyinin işğal altındakı ərazilərdə tarix-mədəniyyət abidələrinin dağıdılmasına dair hesabat hazırlayaraq UNESCO-ya təqdim etdiyi məlumdur.

Mədəniyyət Nazirliyinin verdiyi məlumata əsasən, işğala qədər Azərbaycan tərəfi hazırda işğal altında olan ərazilərdə 8 dünya, 166 ölkə və 588 yerli əhəmiyyətli abidə qeydə alıb. Dağlıq Qarabağ və ona bitişik rayonlarda mövcud olan minlərlə tarixi abidə isə rəsmi qeydiyyatdan kənarda qalıb. Nəticədə ermənilər bu abidələri öz adlarına rəsmiləşdirmək üçün fürsət əldə ediblər. Ekspertlər qeyd edirlər ki, artıq neçə ildir Ermənistanın və erməni diasporunun, xarici ölkələrdən cəlb edilmiş erməni tarixçilərinin köməyi ilə işğalçılar Dağlıq Qarabağ və ətraf rayonlarda qalan tarix-mədəniyyət abidələrinin pasportlaşdırılmasını həyata keçirməkdədir. Dağlıq Qarabağdakı qondarma separatçı rejimin "turizm idarəsi"nin "rəhbəri" Sergey Şahverdiyanın 2011-ci ildə erməni KİV-lərinə verdiyi açıqlamaya görə, işğal altındakı ərazilərdə o vaxta qədər 4 minə qədər tarixi abidə qeydiyyata alınıb. Bu açıqlamaya əsasən, təkcə 2011-ci ildə 289 tarixi abidə sənədləşdirilib. Erməni qaynaqlarında yer alan məlumatlara görə, son illərdə Qarabağda alban dövrünə aid 100-ə yaxın ibadətgaha erməni kilsəsi statusu verilib. Təkcə 2006-cı ildə ermənilər tərəfindən Şuşa şəhəri ətrafında 500-dən çox abidə "erməni abidəsi" kimi qeydiyyata alınıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun topladığı faktlara əsasən, işğal olunmuş ərazilərdə qalan və İslam dövrünə aid tarixi abidələr xüsusi amansızlıqla dağıdılır. Buna səbəb isə bu abidələrin üzərində müsəlman epiqrafiyası ilə yazılar olmasıdır. Bu da onları erməniləşdirmək və qeyri-Azərbaycan abidələri kimi təqdim etmək üçün əlverişli deyil. Bura qəbirüstü abidələr, türbələr və məscidlər daxildir. İnstitutun araşdırmalarına görə, 1994-cü ildə atəşkəsin əldə edilməsindən sonrakı 18 il ərzində işğal altındakı ərazilərdə dağıdılan tarix-mədəniyyət abidələrinin sayı hərbi münaqişə zamanı dağıdılmış abidələrin sayından çoxdur.

Rəsmi məlumatlara görə, ermənilər işğal edilmiş ərazilərdə qalan tarixi abidələri dağıtmaqla və saxtalaşdırmaqla kifayətlənməyib, bu ərazilərdə arxeoloji qazıntılar da aparmaqdadırlar. Arxeoloqlar qeyd edirlər ki, məqsəd ermənilərin Qarabağa 19-cu əsrin əvvəllərindən etibarən köçürüldüyünə dair təkzibolunmaz tarixi faktları ört-basdır etmək, ermənilərin guya min illər boyu bu torpaqlarda yaşadıqlarına dair saxta tarixi dəlillər ortaya çıxarmaqdır. Arxeoloji qazıntılar əsasən 2000-ci illərin əvvəllərindən başlayıb. Həmin vaxt Ermənistan Ekspedisiya, Arxeologiya və Etnoqrafiya İnstitutunun bir qrup əməkdaşı arxeoloq Hamlet Petrosyanın rəhbərliyi altında işğal altındakı Ağdam rayonu ərazisində, vaxtilə Qarabağ xanlarının yay iqamətgahlarının yerləşdiyi Şahbulaq yaylağına ezam edilib. Erməni arxeoloqlarının Şahbulaq yaylaqlarında apardıqları arxeoloji qazıntılar Ermənistandakı "Erkir" ictimai təşkilatı və qondarma "DQR hökuməti" tərəfindən maliyyələşdirilib. Onların qarşısında mifik "Böyük Ermənistan" dövlətinin paytaxtı "Tiqranakert"in izlərini tapmaq vəzifəsi qoyulub. 2006-cı ilin avqust ayında Ermənistan Ekspedisiya Arxeologiya və Etnoqrafiya İnstitutu daha bir qrup əməkdaşını Şahbulaq yaylağına ezam edib. Burada onlar Hamlet Petrosyanın qrupu ilə birləşərək Şahbulaq yaylağının şimal hissəsində qazıntılara başlayıblar və qısa müddət sonra uydurma "Tiqranakert" şəhərinin qalıqlarını aşkar etdikləri barədə xəbər yayıblar. Lakin çox keçmədən erməni arxeoloqlarının bu "kəşfi" biabırçı faktla üzləşib, məlum olub ki, ekspedisiya üzvləri qazdıqları çalalara müasir texnikanın köməyi ilə yonulmuş mişar daşları düzüblər və onları "tarixi dəlillər" kimi təqdim ediblər. Qazıntılarda iştirak edən xarici ölkə arxeoloqları bu biabırçı faktdan sonra ekspedisiyanı tərk ediblər. Buna baxmayaraq, erməni arxeoloqları Şahbulaq yaylaqlarında, tikintisi 1751-1752-ci illərdə başa çatan və Qarabağ xanlarının iqamətgahı olan Qıfıl xan sarayı kompleksi ərazisində qazıntı işlərini hələ də davam etdirməkdədirlər.

Yazıçı-etnoqraf Məhəmməd Nərimanoğlu "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın Ermənistan tərəfindən işğala məruz qalmış ərazilərində məhvə məhkum edilən maddi mədəniyyət abidələri tariximizin daş yaddaşı kimi əvəzolunmaz milli sərvətimizdir: "Bu abidələr təkcə maddi mədəniyyət deyil, həm də mənəviyyat tariximizin "arxivi", səhifələridir. Qarabağın tarixi abidələrinin darmadağın edilməsi isə mədəniyyət və mənəviyyat tariximizin daşlaşmış yaddaşının silinməsi kimi ağrılı-acılıdır. İllərdən bəri məkrli, çirkin siyasətləri ilə daşnakların və onların havadarlarının diş qıcadığı, Azərbaycandan qoparmağa çalışdığı yurdlarımızdan biri, təbii-coğrafi baxımdan respublikamızın ən zəngin bölgələrindən olan Ağdam həm də xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən müxtəlif növlü abidələr diyarıdır. Aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunub ki, bu yerlərdə insanlar təxminən 8-10 min il bundan əvvəl məskunlaşmışlar. 1988-1993-cü illər ərzində düşmənlə üz-üzə, göz-gözə dayanıb qətiyyətli mübarizə aparan və elə torpaqlarımızın bütövlüyü uğrunda ilk şəhidlərini (Əli və Bəxtiyar) verən Ağdam rayonu ərazisində qədim tarixə malik çoxsaylı memarlıq və incəsənət abidələri az deyildi. Ağdam şəhərində Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Sarı Musaoğlu günbəzi (1314-cü il), Kəngərlidəki (XIV əsrin yadigarı) türbə və daş abidələr, Papravənddəki XVII əsrdən qalan Xanoğlu türbəsi, XVIII əsrə aid məscid və digər türbələr, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş 19-cu yüzilliyin türbəsi, Şahbulaq qalası... kimi tarixi-memarlıq abidələri Ağdamın işğalı zamanı ermənilər tərəfindən vandalcasına dağıdılıb. Buradakı tarixi memarlıq abidələri müxtəlif dövrləri əks etdirən nadir nümunələr idi. Bu maddi-mənəvi abidələr qruplaşdırılaraq, "Azərbaycan Respublikasının ərazilərində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü" adlı kitaba da daxil edilib. Ağdamda olan dünya əhəmiyyətli, daşınmaz tarixi və mədəniyyət abidələri sırasına XIV əsri əhatə edən qiymətli nümunələr daxildir.

Məsələn, Ağdamın Xaçın-Dərbəndli kəndində olan Qulu Musaoğlu türbəsinin yaşı çox qədimlərə gedib çıxır: 1314-cü ilə. Belə bir tarixi dövrü əhatə edən abidələrin işğal altında qalması ermənilərə Azərbaycanın tarixini saxtalaşdırmaq üçün müəyyən imkanlar yaradır. Təkcə mədəniyyətimizi deyil, tariximizin bir parçasını sinəsində saxlamış abidələr də (Xanoğlan türbəsi, Qarabağ xanı Pənahəli xanın imarəti (XVIII əsr) və türbəsi də (XIX əsr) daşnak quldur dəstələri tərəfindən dağıdılıb.

Ağdam ərazisindəki maddi mədəniyyət abidələri erməni qəsbkarlarının vandalizm siyasətinin şahididir. Daşnaklar və onların havadarları muzeylərdəki eksponatları nəinki talayıb aparmışdılar, hətta həmin abidə-məbədlərin daşını daş üstə qoymamışdılar. Bütün bu faktlar isə illərdən bəri beynəlxalq müşahidəçi qismində Qarabağa səfər edən təşkilatların təmsilçilərinə yaxşı məlumdur, çünki vaxtaşırı verdikləri hesabat-məruzələrində öz əksini tapıb.

Mədəniyyətlə tariximizin qovuşduğu belə muzeylərdən Ağdam şəhərindəki Çörək, Tarix-Ölkəşünaslıq muzeyləri ilə yanaşı, tarzən Qurban Pirimovun xatirə muzeyinin, Ağdam Şəkil Qalereyasının adlarını çəkmək olar".

Rəsmi məlumartlara görə, Azərbaycanın işğal edilmiş ərazilərində 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə əhəmiyyətli - 119 memarlıq və 173 arxeoloji və 330 yerli əhəmiyyətli - 270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi tarix və mədəniyyət abidələri qalıb ki, onların taleyi haqqında yalnız pis xəbərlər duyuruq. Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində mədəni irsi məhv etməyə yönələn siyasətinin bir hissəsi də bu ərazilərdə qalan muzeylərdə saxlanan misilsiz tarixi eksponatları, qiymətli incəsənət və mədəniyyət nümunələrini talan etməsi olduğu faktdır.

Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov da bizimlə söhbətində bildirdi ki, işğal altındakı Azərbaycan torpaqlarında mövcud olan tarixi alban dövrü abidələrinin quruluşu dəyişdirilərək erməniləşdirilir. "Bu abidələrin də tikinti üslubu və özünəməxsus xüsusiyyətləri Şərq xristianlığı memarlığından kəskin şəkildə fərqlənir. Hazırda ermənilər işğal etdikləri Azərbaycan ərazilərində bu tip abidələrin hamısını erməni kilsələri kimi təqdim edirlər. Alban dövrünün bütün növdən olan tikililərini "erməni kilsəsi" adlandıran ermənilər, Dağlıq Qarabağda alban dövrü abidələrinin hamısının "erməni kilsələri" olduğunu iddia edirlər. Halbuki, Sovet dövründə bu ərazidə cəmi bir erməni kilsəsi mövcud idi və bu kilsə burada yaşayan bütün ermənilərin ibadətini təmin edirdi" - deyə o bildirdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Medianın gücü - ictimai rəy AQTA-nın sükutunu pozdu...

**Son vaxtlar Qida Təhlükəsizliyi Agentliyinin mütəmadi olaraq mətbuatın gündəmində yer alması, əslində, normal haldır. Çünki fəaliyyəti, bütövlükdə, cəmiyyətin diqqət mərkəzində olan sözügedən qurum yetərincə ciddi bir missiyadan - əhalinin sağlam qida ilə təminatından məsuldur.**




*"Heç bir məmur düşünməsin ki, nəyisə gizlətmək mümkün olacaq"*

***Azər Həsrət:** "Sözügedən məsələ ilə bağlı konkret ölçünün götürülməsində mətbuatın rolu böyükdür"*

O da məlumdur ki, son günlər mətbuatda əhaliyə mənşəyi məlum olmayan, ən başlıcası, ölmüş heyvan ətinin satılması ilə bağlı məlumatların yer alması ictimai rəydə böyük rezonansa səbəb oldu. Bir neçə tələbənin dönərdən zəhərlənməsi və digər buna bənzər neqativ halların ortaya çıxması göstərdi ki, mətbuatda "leş mafiyası" ilə bağlı yazılanlar əsaslı arqumentlərə söykənir. Mətbuatın sözügedən məsələnin ciddiliyini gündəmə gətirməsi və belə neqativ halların üzərinə getməsi, nəticə etibarilə, müvafiq qurumların hərəkətə keçməsinə səbəb oldu. Belə ki, Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluğun birgə yaydığı məlumata görə, əhaliyə yararsız ət satan 8 nəfər həbs edilib: "Bu sahədə Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə həyata keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində aşkar edilən qanun pozuntuları ilə bağlı Baş idarə tərəfindən 12 cinayət işi başlanaraq istintaq aparılmış, 9 cinayət işi üzrə ibtidai istintaq yekunlaşdırılaraq 16 şəxs məhkəmə məsuliyyətinə verilmişdir, hazırda isə 3 cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir. Birgə görülmüş işlərə misal olaraq, keçirilmiş əməliyyat tədbirləri nəticəsində Bakı şəhəri, Abşeron, Ağcabədi və Bərdə rayonlarında fəaliyyət göstərən ət pavilyonu və kəsim sahələrində insan sağlamlığı üçün təhlükə təşkil edən yararsız heyvan cəmdəklərinin aşkar edilməsi nəticəsində 8 şəxs barəsində cinayət işi başlanaraq barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib".

O baxımdan mətbuatın bu yöndə oynadığı rol, yaratdığı rəy sözügedən neqativ hallarla bağlı tədbirlərin görülməsinə necə təsir göstərdi?

**Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, bu məsələ ilə bağlı konkret ölçünün götürülməsində mətbuatın rolu böyükdür:** "Əvvəla Prezident İlham Əliyev bir neçə dəfə qeyd edib ki, ictimaiyyəti narahat edən məsələlərlə bağlı mətbuatdan məlumat alır. Onun bu həssaslığı ölkədə bir sıra problemlərin həllində açar rolunu oynayır. Digər tərəfdən də Azərbaycan mətbuatı həqiqətən də ölkə başçısının bu cür problemlərin həllində atdığı addımlara bütün hallarda dəstək olur. Yəni problemləri ictimailəşdirir və onlar da həllini tapır. Sözügedən məsələ ilə bağlı da hərəkətlənmə oldu. Çünki neçı gün idi müxtəlif media orqanları bu məsələni ictimailəşdirdilər. Təbii ki, bunlar cəmiyyəti narahat edən məsələlər idi. Mətbuatın sözügedən problemlərin üzərinə getməsi müvafiq qurumların hərəkətə keçməsinə təkan verdi. Məlumata görə, kəsim sahələrində insan sağlamlığı üçün təhlükə təşkil edən yararsız heyvan cəmdəklərinin aşkar edilməsi nəticəsində 8 nəfər həbs edilib. Əvvəlki dövrlərdə dövlət qurumları mətbuatda qaldırılan bu kimi problemləri qulaqardına vururdular. Ancaq indi situasiya tamam fərqlidir. Ona görə də bu istiqamətdə müvafiq qurumlar hərəkətə keçiblər. Düşünürəm ki, Azərbaycan mətbuatı çox doğru taktika seçib. Yəni heç bir məmur düşünməsin ki, nəyisə gizlətmək mümkün olacaq".

***Vidadi ORDAHALLI***

# Təhsil Nazirliyindən ictimai müzakirə doğurmuş daha bir layihə - "Ehtiyat dərsliklər" barədə bir az artıq bilgilər...

**Son bir ildə Azərbaycanda dərslik sahəsində diqqətçəkən layihələr həyata keçirilir. Alternativ dərslik layihəsindən sonra indi də ehtiyat dərsliklərin hazırlanması məsələsi rəsmi şəkildə gündəmə gəlib. Azərbaycanda hazırda istifadə olunan dərsliklərdən əlavə, ehtiyat dərsliklər də hazırlanacaq.**



*Azər Ələkbərov: "...bunu çox faydalı hesab edirəm"*

***Təhsil Nazirliyi:** "Ehtiyat dərsliklər müəllim-pedaqoji kontingentin inkişafına təkan verəcək, şagirdlərin beynəlxalq qiymətləndirmələrdə nəticələrinin yüksəlməsinə şərait yaradacaq"*

Bu məqsədlə Təhsil İnstitutunda Tədris Resursları Mərkəzi yaradılıb və ehtiyat dərsliklərin hazırlanmasına başlanıb.

Məlumatlara görə, əməkdaşlıq mühiti şəraitində aparılacaq tədqiqatlar nəticəsində ölkədə ehtiyat dərsliklər yaradılacaq. Ehtiyat dərsliklərin hazırlanmasına ibtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat dərsliklərindən başlanacaq.

Təhsil Nazirliyindən "Bakı-Xəbər"ə verilən məlumata görə, ibtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat üzrə ehtiyat dərsliklərin hazırlanması Nazirlər Kabinetinin sərəncamına əsasən həyata keçirilir. "Təhsil İnstitutu tərəfindən hazırlanan ehtiyat dərsliklər dilin və riyaziyyatın tədrisində beynəlxalq təcrübəyə və müasir təlim texnologiyalarına əsaslanır. Dərslik komplektinə dərslik, müəllim üçün metodik vəsait, iş dəftəri və valideyn bələdçisi daxildir.

Ehtiyat dərsliklərin yazılması işinin təşkili üçün Təhsil İnstitutunda Tədris Resursları Mərkəzi yaradılıb. Bu prosesin ilk mərhələsində Təhsil Nazirliyi tərəfindən verilmiş elan əsasında Azərbaycan dili üzrə 160, riyaziyyat fənni üzrə isə 145 müəllim arasında 3 mərhələli müsabiqə keçirilib. Dərslik hazırlığına ali məktəb və universitetlərdə çalışan alim və pedaqoqlar cəlb edilib. Tədrisi xarici proqramlar əsasında qurulan bir çox beynəlxalq məktəbdə görüşlər keçirilib, onların təcrübələri öyrənilib və bu məktəblərdə çalışan müəllimlər müsabiqəyə dəvət olunub. Daha sonra ehtiyat dərsliklərin konsepsiyası hazırlanıb və məzmunu təkmilləşdirilib".

Nazirlikdən onu da bildirdilər ki, tədris resurslarının istifadəsindən əvvəl onların sınaqdan keçirilməsi nəzərdə tutulur. Artıq 1-ci siniflər üzrə dərsliklər hazırdır: "Respublika səviyyəsində 123 sinifdə dərsliklərin pilot layihə üzrə sınağı həyata keçirilir. 123 sinfin 48-i şəhər məktəbləri, qalanları isə rayon məktəblərindən seçilib. 2-ci sinif üçün dərsliklərin hazırlanması prosesi davam edir. Eyni zamanda, bu il məktəbəqədər təhsil üçün yeni alternativ dərsliklər hazırlanır.

Sınaq müddətində müəllimlərlə sıx əməkdaşlıq ediləcək və nəticələr xüsusi blanklarda təqdim olunacaq. Bu müddətdə ekspertlərin iştirakı ilə dərsliklərin müzakirəsi təşkil olunacaq və ictimai rəy öyrəniləcək. Sınaqda iştirak edən müəllim, ekspert, rəyçilərin irad və təklifləri ümumiləşdiriləcək və dərslik komplektlərinin kütləvi istifadəsi üçün müvafiq düzəlişlər ediləcək. Ehtiyat dərsliklər müəllim-pedaqoji kontingentin inkişafına təkan verəcək, şagirdlərin beynəlxalq qiymətləndirmələrdə nəticələrinin yüksəlməsinə şərait yaradacaq. Dərslik komplektinə daxil olan valideyn bələdçisi valideynlərin pedaqoji maarifləndirilməsində böyük rol oynayacaq və onları tədris prosesinə cəlb edəcək".

**Təhsil eksperti Azər Ələkbərov bizimlə söhbətində bildirdi ki, Təhsil Nazirliyi tərəfindən ehtiyat dərsliklərin hazırlanması olduqca əhəmiyyətlidir.** Ekspertin sözlərinə görə, tədrisdə alternativ vəsaitlərin, nazirlik tərəfindən təsdiqlənən mənbələrdən istifadə edilməsi müsbət nəticələr verir. "Mən onun tərəfdarıyam ki, tədrisdə dərslikdən əlavə, şagirdlər başqa mənbələrdən də istifadə etsinlər. Bu mütləqdir. Əlavə mənbələrdən istifadə tədrisin keyfiyyətinə müsbət təsir göstərir. Bu, ensiklopediya da, başqa rəsmi resurslar da, alternativ və ehtiyat dərsliklər də ola bilər. Tədris prosesinə dəstək verə bilən istənilən rəsmi mənbədən istifadə edilməsinin tərəfdarıyam. Lakin o mənbə mütəxəssislər, rəsmi qurumlar tərəfindən hazırlanmalıdır. Bu mənada, Təhsil Nazirliyi tərəfindən hazırlanan ehtiyat dərsliklərin çapını yüksək dəyərləndirirəm və bunu çox faydalı hesab edirəm. Ehtiyat dərsliklərin nəşrini çoxdan gözləyirdik və bunun reallaşması tədris prosesinə müsbət təsir göstərəcək" - deyə bildirən A.Ələkbərov qeyd etdi ki, son zamanlar valideynlərin uşaqlarını rus bölmələrinə yönəltməyinin əsas səbəblərindən biri orada alternativ resursların çoxçeşidli olması ilə bağlıdır. O hesab edir ki, Təhsil Nazirliyi bu problemin həlli istiqamətində köklü işlər görür və onlardan biri də ehtiyat dərsliklərin hazırlanmasıdır.

***İradə SARIYEVA***

# Gözlər yoldan yığılarmı...

## XATİRƏLƏR, DİLƏKLƏR...

## Xəqani: "Mənə silah ver, burdan çıxım..."

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

*"Oğlan özünə gələndə Gün göyün o biri qırağına keçmişdi. O dikəlib, titrəyən qollarına dayaqlanaraq çətinliklə qayığın sükan yerinə qalxdı və gözüyumulu dayanıb başgicəllənməsinin keçməsini gözlədi. Sonra gözlərini açdı. Qayıq dalğaların üstü ilə şütüyürdü. Dəniz də canlı, çağlayan suların saysız-hesabsız şəfəqlərində əvvəlki kimi zərif-zərif ləpələnərək göz işlədikcə uzanıb gedirdi. Kirisk qənşərinə baxdı, gözlərini sildi və yerindəcə donub qaldı. Alabaş dənizin tünd-yaşıl dibdiri arxasından çıxıb düz onun üstünə gəlirdi. Alabaş onun qabağına qaçırdı, Ulu Alabaş!..*

*Ağqulaqlı, ağpaçalı Alabaş bütün qayalardan ucada dayanmışdı və onun ətəyi yanındakı əbədi ləpədöyənin kükrəyən kənarı da görünürdü. Havada isə sahil qağayılarının səsləri eşidilirdi. Onu birinci qağayılar görmüşdülər."*

*Çingiz Aytmatov. "Dəniz kənarı ilə qaçan Alabaş"*

***(on dördüncü yazı)***

XX əsr Şərqinin, keçmiş SSRİ-nin, Qırğızıstanın, özəlliklə bütün Türk dünyasının böyük yazıçısı Çingiz Aytmatov bu sətirlərlə ağıla gəlməyəcək dəhşətli anlar, təbəddülatlar, iztirablar yaşamış bir nəslin elə bu dəhşətlərin iştirakçısı olan davamçısının başına gələnləri böyük ədəbiyyata gətirib. Nəhəng düşüncə adamı bu sətirlərlə bir nəslin yox olma, bir insan həyatının ölümdən qurtulma məqamlarını abidələşdirib. On illərdir ki, əsər geniş, sərhədsiz oxucu kütləsinin stolüstü və kitab rəfləri arasında dövr edərək dünyəvi mahiyyətini getdikcə daha da artırır.

Şükürlər olsun ki, bizim qəhrəmanımız Xəqaninin ata yurdunda bu ocağın məsuliyyət və genefondunu daşıyacaq yetərincə övladlar, nəvələr, nəticələr var. Qohum-əqrəba, dost-tanış, mənsub olduğu xalqın, Vətən torpağının bizim kimi qədirbilən kəsimi də həmçinin. Ancaq hər bir kəsin özünəməxsus yerinin, öz missiyasının, öz faydalılığının olması da şübhəsizdir. Üstəlik, Böyük Yaradanın hər bir yaratdığına əta elədiyi, ancaq özünün yaşaya biləcəyi ömür payı, tale, bəxt-qədər də var. Bütün ölkələrin Əsas Qanunu - Konstitusiyalarının birinci müddəası "insanın yaşamaq hüququ"nun olduğunu tövsiyə edir. Çünki Allahın verdiyi bu təməl hüququnu onun yerdəki azçox humanist hisslərə, elementar mədəni duyumlara məxsus bəndələri bütün fərdlərə tanımağa bilavasitə borcludurlar. Bu, hər kəsin əməl etməli olduğu boyun borcu sayılır. Milliyətindən, dinindən, irqindən asılı olmayaraq bütün insanların təbii ki... Ancaq o müqəddəs borclara əməl etməyi kimlərdən - hansı insanlardan, hansı millətlərdən ummaq, gözləmək olar?!.. Bax, bu hazırda bəşəriyyətin sivil kəsimini narahat edən ən qlobal problemlərdən birinə çevrilib. Ola bilsin, bir çox soydaşlarımız kimi Xəqani də, Fərhad da ermənilərin əlində sağdılar, ola bilsin ki yox, ancaq bu insani davranış normalarını sərgiləyərək onların heç olmazsa öldüsü-qaldısı haqqında məlumat verməyə belə indiyədək özündə güc tapan bir erməninin olmaması...bu bizim "kimlərlə qonşu olmağımızı və kimlərin, necə xislətli insanların" havadarlarına güvənərək tarixi torpaqlarımızı işğal etdiyini dünyaya nümayiş etdirən çox tutarlı dəlillərdəndir. Mən istərdim ki, arxasında böyük reallıq dayanan bu danılmaz fakt bizim ermənilərlə informasiya müharibəsi iştirakçılarının əlində əvəzsiz bir dəstəvuza çevrilmiş olsun. Bu fakt həm onların kimliyini sübuta yetirir, həm də azərbaycanlı əsir dinc sakin və əsgərlər haqqında məlumatların 25 ildən artıq bir müddətdə qeyri-müəyyən status və qeyri-müəyyən şəraitdə ermənilərin əlində bir sirr olaraq qalmasını gerçək nümunə kimi ortaya qoyur. İnsana aid edilməyən, insanlığa sığmayan, XXI əsrdə bizlərin üz-üzə qaldığımız"orta əsr təfəkkürlü xislət"in ifşası üçün bundan böyük həqiqətmi lazımdı bizə dünyaya sübut etməyə?!..

### "İnanmırıq Xəqanini öldürsünlər"

Əsgər kişinin digər oğlanları - Qarabağ döyüşünün iştirakçıları olan qardaşlar Zaur, Natiq, Şahin də getdikcə söhbətimizin iştirakçıları olurlar. Onlar buraya həm Xəqani haqqında danışmaq, həm də Mübarizin evində qonaq olan valideynlərini ziyarət etmək üçün cəm olublar. Mən isə vaxtdan daha çox səmərəli yararlanmaq fürsətini əldən verməyərək suallarımı davam etdirirəm. Əsasən də, təbii ki, Xəqanili-Xəqanisiz günlər ətrafında. Ərşad Xəqanini axtarmaq üçün cəhdlərini sadalayır:

- Mən ordudan gələndən, hospitalda müalicə alıb çıxandan sonra Binəqədi rayonunda 1995-96-cı illərə qədər veteranlar, Qarabağ əlilləri cəmiyyətlərinin üzvü olmuşam və bu təşkilatlar vasitəsilə ölkəmizdəki bütün analoji qurumlarla bir müddət mütəmadi əlaqələr saxlamışam. Orda gördüyüm hər kəsdən Xəqani haqqında dəfələrlə soruşdum. Heç biri gördüm demədi. Sonra başqa variantlarla da soraqlaşmalarımı davam etdirdim. Məsələn, elə hazırda işçisi olduğum "FAB" şirkətinə İran İslam Respublikasına məxsus maşınlar və onların əksəriyyətinin milliyyəti azərbaycan türkləri olan sürücüləri gəlir. O sürücülər Azərbaycanla yanaşı Ermənistana, Dağlıq Qarabağa da gedib-gəlirlər. Daim bu sürücülərdən orda gördükləri haqda məlumatları soruşuram, Xəqani haqqında bütün məlumatları onlara təqdim edirəm, fotoları ilə bərabər. Ancaq onlardan indiyədək konkret olaraq bu nəm-nişanda birisini gördüyünü, tanıdığını söyləyən olmayıb. Onlardan aldığım bir məlumatı deyim sizə.

Yenə hansısa daha bir əsir soydaşımızdan məlumat alacağımı zənn edib tələşlanıram. Tələsdirirəm həmsöhbətimi danışmağa:

- Buyur, buyur söylə...

Ərşad:

- Sürücüləri sorğu-suala tutarkən onlardan biri başına gələn əhvalatı - bir azərbaycanlını necə qaçırıb xilas edə bildiyini nəql etdi mənə: "Zəngilanın kəndlərində sahibsiz, ermənilərin nəzarətində qalmış tikinti materiallarını maşınla daşıyıb İrana aparırdım. Burda bir azərbaycanlı ilə rastlaşdım. Mənə yalvardı ki, onu xilas edim. Bu çox risq tələb eləyirdi. Amma başqa variantim qalmamışdı. Onu belə miskin vəziyyətdə qoyub gələ bilməzdim. Bu mənim insanlıq, qardaşlıq, müsəlmançılıq borcum idi. Ona görə risq etdim. Həmin adamı söküntü materiallarının arasında gizlədib, hər tərəfinə daş yığıb, üstünə şifer qoydum. Bu yolla onu Qarabağ ərazisindən çıxarıb Azərbaycana gətirdim.

- Yəqin ki, Xəqanini də xəbər aldınız ondan. Xəqanini soruşanda nə dedi o sürücü?

- O sürücüyə əvvəlcə qiyabi məlumat verdim dayım oğlu haqqında. Sonra Xəqaninin müxtəlif formalarda şəkillərini apardım, bütün məlumatları verdim bir daha ona. Dedi yox, mən belə bir adam görməmişəm.

- Bilirsiniz, bu məlumatları topladıqca mən niyə ümidlənirəm? Axı Fərhadla Xəqaninin nə meyitlərini görən olub, nə barələrində hər hansı məlumat var... Əgər öldürülüblərsə, ermənilər meyitlərini verər, heç olmasa elan edərdilər... başdan-başa müəmmadır... Bircə o Əhməd dediyimiz adamla yarımçıq söhbətdə deyilənlərdən başqa heç nə məlum deyil...

Şahin dillənir:

- Mən inanıram ki, onu öldürməzlər. Bilirsiniz niyə? O çox sağlam bədənli, qüvvətli oğlan idi. Onu işlədərlər. Məsələn, mühafizə kimi yerlərdə işləyə bilərdi Xəqani o bədənlə. Düzdür, ona orda belə işləri etibar eləməzlər, amma yenə də hardasa istifadə edərlər. İndi, məsələn, oxuyuruq ki, Kəlbəcərdə qızıl mədənlərində, ya başqa yerlərdə nə qədər azərbaycanlı əsirləri işlədirlər. O da onlardan biri, onların arasında ola bilər.

- Əgər sağdırsa, niyə gizli saxlasınlar?

- Cürbəcür səbəblərdən ola bilər. Bədən orqanlarına görə və sairə.

Qasımın söylədiyi, Moskvada ərik yeşiyinin altından tapılan məktub haqqında məlumat verirəm həmsöhbətlərimə. Onlar da bunu eşitdiklərini deyirlər. Dediklərinə görə, hətta məktubda siyahı da olubmuş. Amma nədənsə, siyahıdan heç bir xəbər yoxdu. Sonra əsirlikdən qaçıb gələnlərlə bağlı eşitdiklərimizi danışırıq qarşılıqlı şəkildə. Məlum olur ki, bu döyüşçü qardaşlar da əsirlikdən gələn bir neçə nəfərlə görüşüblər. Keçmiş əsirlərdən biri ermənilər üçün işləyən bir Əfqanıstan vətəndaşının onu işləməyə - drellə divarda deşik açmağa məcbur etdiyini, lakin bunu bacarmadığını gördükdə dreli alıb vəhşicəsinə onun öz bədənində deşik açdığını deyibmiş. Düzü, bu vəhşiliyə görə, üstəlik adətən biz tərəfdən döyüşdüyü deyilən əfqanların həm də ermənilərə qulluq göstərməsi, hətta ermənilər tərəfdən döyüşməsi məlumatından təəccübləndim və sarsıldım. Elə Ərşad da bunu keçmiş əsirdən soruşubmuş. Cavabında yaralı keçmiş əsir deyib ki, hə, əfqanlardan ermənilərlə işbirliyində olan və ermənilər tərəfdən də vuruşanlar da var imiş. Muzdla...



Söhbətimiz əsnasında o da bəlli olur ki, bu əsirin bəxti gətirib. Belə ki, Qırmızı Xaçın siyahısında olduğundan, onun yarasını əvvəlcə müalicə etdirib sonra özünü Azərbaycana təhvil veriblər. Ancaq keçmiş döyüşçünün sözlərinə görə, o durumla yəqin çox yaşaya bilməzmiş o adam. Doğrusunu Allah bilər. Amma bu vahiməli məlumatdan sarsılmağımla bərabər, mənim diqqətimi yenə axtarışlarım zamanı cavabsız qalmış sualların, düşündürücü məqamlar məşğul etdi... yenə Qırmızı Xaçın siyahısı - Xəqaninin qurtulmasının və sağ qalıb, ya şəhid olması bilgilərinin qarşısını kəsən əsas vasitələrdən biri...

Söhbətimizi təmkinlə kənardan dinləyən ev sahibi - Mübariz bir qədər kövrək durumda dillənir:

- Mən də ümidimi üzə bilmirəm Xəqaninin tapılacağından. Nədənsə, məndə daxilən bir inam var ki, Xəqani yaşayır, Xəqani gələcək, Xəqani mütləq gələcək!

Ərşad:

- Gəraybəyli kəndindən Qarabağda döyüşmüş əsgərlərin siyahısını tutmuşam (əlində göstərir). İstəyirdim bunu kəndin məktəbində guşə şəklində asam. Burda Xəqaninin də, bizim hamımızın da, başqalarının da adı, barələrində xronoloji məlumatlar qısa şəkildə yer alıb. Ancaq fikrimdən daşındım. Bilirsiniz niyə? Baxdım ki, siyahıda elə əksəriyyət bizim qohum-əqrəbadandı. Fikirləşdim camaat birdən düşünər ki, bunlar özlərini təbliğ edib gözə soxurlar, ona görə hazırladığım bu məlumatlar elə beləcə də qaldı.

Mən vaxtilə jurnalist fəaliyyətimlə əlaqədar əslən Cəbrayıl rayonundan olan Şakir adlı bir keçmiş əsirlə Bakının Filarmoniya bağında görüşmüşdüm. Onda Xəqani haqqında məlumatlı deyildim. Yadımdadır ki, onun başına xeyli sayda insan cəm olmuşdu. Bu insanların arasında bir çox itkin düşmüş, sorağı gəlməyən döyüşçülərimizin yaxınları, doğmaları da var idi. Hamısı öz itkin düşmüş adamlarını - qardaşlarını, qohumlarını ondan soruşurdu. Bəstəboy, cılız bədənli bir oğlan idi Şakir. O, əsasən Xankəndidə saxlandığını söylədi. Soruşanların suallarını cavablandırarkən adını eşitdiklərindən kimisə gördüyünü, kimisə görmədiyini, tanımadığını deyirdi. İndi düşünürəm ki, bu adamı da tapa bilsək, ondan da Xəqanini soruşmaq mümkün olardı.

Xatırlayıram ki, Şakir əsirlərə ermənilərin necə işgəncə verdiklərindən də danışmışdı. Özünə gəldikdə isə söyləmişdi ki, "ağzımda qızıl dişlərim var idi. Ermənilər qızıl dişlərimi paslı mismar kəlbətinlə dartıb çıxartdılar". Elə Xəqaninin taleyilə ilgili əvvəlki yazılarımın birində ona görə məhz bu faktı xatırlayıb ABŞ-ın İraqda əsirlərlə insan kimi davranmadığına görə öz əsgərini mühakimə etməsini də bu minvalla - XXI əsr insanının həyata yanaşması baxımından misal gətirmişdim. Yeni bir daha təkrarlayıram ki, indi orta əsrlər deyil, bütün parametrlər dəyişdiyinə, müasirləşdiyinə görə, hətta əsirlərlə davranışlarda da müasir, insani, sivil yanaşmalar tətbiq etmək olar.

***(Ardı 13-cü səh.)***

**Azərbaycanda yaradıcılıq ittifaqları və birlikləri Sovet dövründə yaradılsa da, bir sıra keçmiş ittifaq respublikalarından fərqli olaraq, bu gün də fəaliyyətlərini davam etdirirlər. Halbuki, bir sıra respublikalarda bu kimi birliklər ya fəaliyyətini tamamilə dayandırıb, ya da ictimai əsaslarla öz işlərini davam etdirirlər.**

***Rəşad Məcid:*** *"Bu vəsait əsasən AYB-nin 85 illik yubiley tədbirlərinin keçirilməsi məqsədilə ayrılıb"*

***Firəngiz Əlizadə:*** *"650 min manatı hələlik hansı istiqamətə xərcləyəcəyimizi planlaşdırmamışıq"*

***Məhərrəm Qasımlı:*** *"... bizə göstərilən dövlət dəstəyinin təzahürüdür"*

# Prezidentin yaradıcılıq ittifaqlarına ayırdığı yardım onların bir çoxunun illik büdcəsindən az qala çox oldu...







Bizim ölkədə isə, ənənəvi olaraq, yaradıcılıq ittifaqları və birlikləri dövlət büdcəsindən aldıqları dotasiya ilə öz mövcudluqlarını qoruyurlar.

Bilirik ki, Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycandakı yaradıcılıq qurumları olduqca ağır duruma düşdü. Dövlət onlara maliyyə yardımı göstərməsəydi, yəqin ki, indi bu birliklərin çox az bir hissəsi fəaliyyət göstərə bilərdi. Hər il ardıcıl olaraq dövlət büdcəsindən yaradıcılıq ittifaq və birliklərinə xeyli məbləğdə vəsait ayrılır. Buna baxmayaraq, həmin təşkilatlar narazılıq edirlər ki, onlara ayrılan vəsait çox azdır və bununla az iş görmək olur. Onların iddialarına baxmayaraq, reallıq bundan ibarətdir ki, son bir neçə ildə dövlət büdcəsindən yaradıcılıq qurumlarına vəsaitin həcmi xeyli artırılıb. 2012 və 2013-cü illərdə bu qurumlara ayrılan vəsaitlər indi ikiqat artırılıb. Həmin dövr ərzində Azərbaycan Yazıçılar Birliyinə 500 min manat, Azərbaycan Bəstəkarlar İttifaqına 335,6 min manat, Azərbaycan Rəssamlar İttifaqına isə 181,7 min manat ayrılıb. Sonrakı dövrlərdə isə bu vəsait bir qədər də artırılıb. Azərbaycan Yazıçılar Birliyinin hazırkı büdcəsi 1 milyon manatdan bir qədər azdır. Azərbaycan Bəstəkarlar İttifaqının büdcəsi isə 440 min manat təşkil edir. Rəssamlar İttifaqının büdcəsinin 300 min manata yaxın olduğu bildirilir.

Bu günlərdə Prezident İlham Əliyev "Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Yazıçılar Birliyinə 800 (səkkiz yüz) min manat, Azərbaycan Bəstəkarlar İttifaqına 650 (altı yüz əlli) min manat, Azərbaycan Rəssamlar İttifaqına 350 (üç yüz əlli) min manat, Azərbaycan Respublikası Kinematoqraflar İttifaqına 300 (üç yüz) min manat, Azərbaycan Memarlar İttifaqına 250 (iki yüz əlli) min manat, Azərbaycan Teatr Xadimləri İttifaqına 250 (iki yüz əlli) min manat və Azərbaycan Aşıqlar Birliyinə 250 (iki yüz əlli) min manat vəsait ayrılıb.

Azərbaycan Yazıçılar Birliyinə (AYB) ayrılan birdəfəlik maliyyə yardımı elə onun illik büdcəsi qədərdir.

Bu gün Azərbaycan Yazıçılar Birliyinin müxtəlif bölgələrdə xeyli sayda filialı fəaliyyət göstərir, bu filiallarda onlarla yazıçı, şair və publisist təmsil olunur.

Azərbaycan Yazıçılar Birliyi bu quruma ayrılan 800 min manatı il ərzində hansı məqsədlər üçün xərcləyəcək?

**Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid "Bakı-Xəbər"ə bildirdi ki, Birliyə ayrılan 800 min manat əsasən AYB-nin 85 illik yubiley tədbirlərinin təşkil edilməsinə yönəldiləcək.** "Bu il Azərbaycan Yazıçılar Birliyinin 85 illik yubileyidir. Bu yubileyin təşkil edilməsi üçün maliyyə vəsaitinin ayrılması üçün Birlik tərəfindən hökumətə müraciət edildi. Bu vəsait əsasən AYB-nin 85 illik yubiley tədbirlərinin keçirilməsi məqsədilə ayrılıb".

R.Məciddən AYB-nin bölgələrdə fəaliyyət göstərən filiallarının bu vəsaitdən bəhrələnməsinin nə dərəcədə mümkünlüyünü də soruşduq. O bildirdi ki, bu il AYB tərəfindən həm "Nəsimi ili", həm də yazıçıların yubileyləri ilə bağlı tədbirlər keçiriləcək. Prezidentin ehtiyat fondundan AYB-yə ayrılan maliyyə vəsaitinin xərclənməsi istiqamətləri ilə əlaqədar olaraq layihə hazırlanıb. "Əsas məsələ isə Birliyin qurultayı və 85 illik yubileyidir ki, bu tədbirlərə də xaricdən çoxlu qonaq dəvət ediləcək. Onların bura gəlməsi, yerləşdirilməsi, tədbirlərin keçirilməsi bu vəsait hesabına olacaq. Yazıçılar Birliyinin büdcəsinə gəlincə isə, qurumun illik büdcəsi 1 milyon manatdan azdır, təxminən 700-800 min manatdır" - deyə R.Məcid bildirdi.

**Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə isə bizimlə söhbətində bildirdi ki, bu quruma ayrılan birdəfəlik yardım qurumun illik büdcəsindən artıqdır.** "Prezident bütün yaradıcılıq ittifaq və birliklərinin problemlərinin çox operativ şəkildə həll edilməsi məsələsində bütün məmurlara bir nümunə göstərdi. Cənab Prezident bizi dinlədi və çətinliklərimizin aradan qaldırılması istiqamətində çox çevik addım atdı. Çox istərdim ki, məmurlar da Prezidentdən nümunə götürsünlər və yaradıcılıq ittifaqlarına ayrılan vəsaitlərin tez bir zamanda qurumların hesabına köçürülməsini təmin etsinlər. Bizə 650 min manat vəsait ayrılıb. İttifaqın illik büdcəsi isə 440 min manatdır. Biz bu vəsaiti əsasən binanın saxlanmasına, tədbirlərin təşkil edilməsinə, bəstəkarların yubiley və xatirə günlərinin keçirilməsinə və s. xərcləyirik. Prezident tərəfindən ayrılan 650 min manatı hələlik hansı istiqamətə xərcləyəcəyimizi planlaşdırmamışıq. Çünki vəsait köçürülmədiyi üçün, xərcləmə layihəsini hazırlamamışıq. Bilirsiniz ki, biz Şəkidə "İpək yolu" musiqi festivalı keçiririk. Festivalın keçirilməsinə çox az bir müddət qalıb. Biz ora qonaqlar dəvət etməliyik, proqram tutmalıyıq və s. Bunlar hamısı isə maliyyə ilə bağlı məsələdir. Vəsait köçürüldükdən sonra görəcəyimiz işlər barədə açıqlama verərik" - deyə bildirən F.Əlizadə onu da nəzərə çatdırdı ki, qurumun 5 filialı var və hər zaman onlara da diqqət yetirilir.

**Azərbaycan Aşıqlar Birliyinin (AAB) sədri professor Məhərrəm Qasımlının bildirdiyinə görə isə AAB-ın illik büdcəsi əvvəllər 50 min manat olsa da, hazırda 100 min manata yaxındır.** Birlik sədri qeyd etdi ki, Prezident tərəfindən quruma ayrılan 250 min manat ustad aşıqların irsinin toplanıb nəşr edilməsinə, habelə onların yubileylərinin keçirilməsinə, eləcə də Beynəlxalq Aşıq Festivalının təşkil edilməsinə və Birliyin jurnallarının nəşrinə xərclənəcək. "Prezidentin Aşıqlar Birliyinə ayırdığı birdəfəlik yardım bizə göstərilən dövlət dəstəyinin təzahürüdür. Bizə ayrılan 250 min manatı Birliyin maddi-texniki bazasının gücləndirilməsinə, eləcə də ustad aşıqlarımızın irsinin nəşrinə, ustadalrın yubileylərinin, xatirə günlərinin keçirilməsinə, gənc aşıqların disklərinin hazırlanmasına, "Ozan" ensiklopediyasının çapına və s. xərcləyəcəyik. Bundan başqa, bu il III Beynəlxalq Aşıq Festivalını da keçirəcəyik. Festival da bu vəsait hesabına təşkil ediləcək" - deyə M.Qasımlı vurğuladı.

***İradə SARIYEVA***

---

***(Əvvəli 12-ci səh.)***

Amma baxır hansı cəmiyyətdə, hansı rejimdə, hansı dövlətdə təbii ki...başdan-başa cinayətkarlıq üzərində qurulmuş xunta rejimli bir ölkədən bu miqyasda insani dəyərləri gözləməyin özü belə absurddur yəqin... Həmsöhbətlərim bu qənaətimi təsdiqlədikdən sonra Ərşad yenidən davam edir. O, bu dəfə Xəqaninin axtarışlarını öz itkin düşmüş övladını, yaxınlarını axtaranların vasitəsilə də nəzarətdə saxladığı faktların bəzilərindən söhbət açır:

- Əlbəttə elədir. Ermənilərdən ancaq bu tipli bəd, insanlığa sığışmayan əməlləri gözləyə bilərik. Onlardan humanistlik gözləmək...bu təxminən "dəryada balıq sevdası"na düşmək kimi bəri başdan nəticəsiz düşüncə tərzimiz olar. Amma biz də imkan düşdükcə bütün yerlərdə axtarmışıq Xəqanini. Bax, elə bu Biləcəridə məhəlləmizdən də bir nəfər itkin düşmüşdü. Nə qədər köhnə iş yerimiz - Evtikmə Kombinatı işləyirdi o iş yerimizin, sonradan Qarabağ əlilləri, veteranları təşkilatlarının xəttilə onun atasına mümkün yardımları edirdik ki, ailəsini dolandırmaqla bərabər, oğlunun axtarışları ilə də məşğul ola bilsin. Bu səbəbdən mən həm də o kişi ilə mütəmadi əlaqələnə bilirdim. Onunla danışmışdıq və bütün məlumatları da ona vermişdim ki, axtarışları zamanı onun oğlu ilə bağlı məlumatlar bizim rastımıza çıxsa biz onu məlumatlandıraq, bizim dayımız oğlu ilə bağlı ona nəsə rast gəlsə, o bizi bilgiləndirsin. Ancaq o da heç nə eşidə bilmədi Xəqani haqqında. Sonra kişi özü də oğlunu tapa bilmədən dünyasını dəyişdi, daha onların gəlib-gedənləri olmadı. Amma ki, onun da oğlu sağdı, deyirlər...

### "Onu, çox güman, Qarabağda saxlayırlar..."

Doğmaların yaddaşındakı Xəqani doğmaların yuxusuna da gəlir arabir. Bunu mənə bir çox müsahiblərim söyləyir. Mən də yeri gəldikcə onları ümumiləşdirib, içərisində xüsusi seçmələr aparmaqla sizlərə təqdim etmək istəyirəm. Düşünürəm ki, bu da bir təsəllidi. Belə təskinlikverici yuxulardan birini də onun bibisi oğlu, özü də Qarabağ savaşının dəhşətlərindən keçmiş Şahin dilə gətirir. Amma onun yuxusunda da bir özəllik hökm sürür. Xəqani onun yuxularında əksərən eyni məzmun, eyni forma, eyni istək, eyni diləkdə görüntülənir. İstəyi xilasına yardım üçündü. Gəlin, Şahinin öz dilindən eşidək:

- Nə vaxt Xəqanini yuxuda görürəm, elə deyir mənə silah ver. Silah ver burdan çıxım. Amma görürəm ki, bir tərəfi yaralıdı, həmin tərəfi işləmir. Səbəbini soruşuram, həmişə bir onu deyir ki, bir tərəfim ağrıyır. Yuxuda onun cəbhədə, döyüşdə yox ha, kəndimizdə olduğunu görürəm. Kənddə ya onların evi tərəfdə, ya biz tərəfdə, ya heyvan qabağında. Onu öldürməyiblər elə bilirəm. Saxlayırlar. Özü də Ermənistanda yox, Qarabağ bölgəsində. Qarabağa girə bilmirlər axtaranlar. Ona görə də tapılmır Xəqani...

...Hə Şahin, bəlkə də belədi, sənin dediyin kimi Qarabağda saxlayırlar Xəqanini. Bizim Vətənimizin bizdən ayrı düşmüş parçası Qarabağda... Xəqaninin qorumaq üçün özünü oda atdığı Qarabağda. Xəyalən düşünürəm ki, Xəqani Vətən torpağının bir parçasının düşmən əlində qalması ilə barışmadığından, işğalçılara nifrətinin artması ilə yanaşı, bizlərdən də küskün düşüb... bəlkə elə ona görə yanımıza qayıtmır...istər cisim, istərsə ruh şəklində, fərqi yoxdu...bizlərdənsə küsməkdə tam haqlıdı Xəqani. Amma inanmıram ki, əgər sağdırsa, onun bu küskünlüyü ürəyindəki böyük VƏTƏN sevdasına kölgə sala bilsin! Sadəcə:

*- Bülbül yuvasına toxunsa biri*
*Daha o budağa*
*dönməz quşcuğaz.*
*Sızıldar canında bir yuva yeri,*
*Amma yuvasına nifrəti olmaz.*
*Mənim də küsməyim,*
*dönməyim belə.*
*Könlüm yana-yana*
*sönməyim belə.*

(Musa Yaqub)

***(ardı var)***

***Nəzirməmməd ZÖHRABLI***





**Bir müddət əvvəl Bakı şəhərində avtomobillərin dayanma-durma qaydalarının müəyyənləşməsi və xüsusilə də buna görə cərimələrin tətbiq edilməsi ilə bağlı səlahiyyətlərin Bakı Nəqliyyat Agentliyinə verilməsi barədə məlumat yayıldı. Sadə dillə bunun izahı beləydi, artıq bu qaydaların pozulmasına görə cərimələri polisin DYP kimi klassik strukturu deyil, yeni yaradılmış BNA toplayacaqdı. Məhz cərimələrin yığılması ilə bağlı məqamı təsadüfən xatırlatmadıq.**




## Tanınmışlar zərərçəkənlər qismində...

# Bakı Nəqliyyat Agentliyinin "prinsipial" cərimə əməliyyatı əhali arasında narazılığı hər gün artırır

Çünki BNA-nın bu istiqamətdə apardığı maarifləndirmə və təbliğat işlərində, nədənsə, cərimələrin məhz onlar tərəfindən toplanacağı xüsusi qabardılırdı. Üstüörtülü reklam xarakterli həmin mətnlərlə tanış olan hətta savadlı insanlarda belə təəssürat yaranırdı ki, sanki BNA-nın təyinatı DYP-nin əvəzindən cərimə yığmaqdan ibarətdir. Əslində, bu qurum çox böyük səlahiyyətlərə malikdir. Demək olar ki, paytaxtın ictimai nəqliyyat sahəsinin tənzimlənməsində geniş səlahiyyətləri əlində cəmləyir. Ancaq, nədənsə, həmin qurum üçün şəhərin daha çox yaralı yeri sayılan ictimai nəqliyyatda olan problemlərin aradan qaldırılması deyil, məhz cərimələrin toplanması cəzbedici görünməyə başlamışdı. Cərimələrin yazılması və toplanması üzrə səlahiyyətləri əlinə keçirəndən sonra BNA-nın ilk olaraq sevincək şəkildə təqdim etdiyi nailiyyətlərindən biri də toplanan cərimələrin miqdarı ilə bağlı oldu. Dərhal nəzərə çarpdı ki, bunlar DYP-dən qat-qat çox cərimə yığıblar. İlk baxışdan belə rəy yarana bilərdi ki, DYP-nin həmin istiqamətdəki fəaliyyəti olduqca zəif olub. Amma həmin cərimələrin BNA tərəfindən hansı qaydada toplandığını araşdırdıqda məlum olur ki, sözün həqiq mənasında, həmin pulu əhalidən sanki çığırda-çığırda alıblar. Bunu biz demirik. Qurumun yürütdüyü cərimə siyasətilə bağlı aparılan ictimai müzakirələri, sosial və ənənəvi media nümunələrində yazılanları oxuduqdan sonra bu qənaətə gəlirik. Hətta ictimai qınaq o həddə çatıb ki, bir çox vətəndaş BNA-nın ləğv edilməsi təklifini belə irəli sürür. Dövlət Agentliyi isə bunun əhalinin xeyrinə olduğunu israrla bildirir. Bu sahənin mütəxəssisləri hesab edirlər ki, Bakı şəhərində dayanma və durma, parklama üçün ərazilər çox məhduddur, bu baxımdan sürücülər üçün müəyyən şərait yaradılmalıdır. Ancaq BNA bunu nəzərə almadan yalnız daha çox cərimə yığmağa meyllənib. Çox təəssüf ki, qurum hər yerdə tikinti bumunun olduğunu nəzərə almır. Guya bilmirlər ki, əksər ərazilər tikinti şirkətləri tərəfindən zəbt olunub. Hətta bəzi binalar səkilərin üzərində inşa edilir. Parkinqlər nəzərə alınmır və az qala yolun hərəkət hissəsində marketlər, müxtəlif ticarət mərkəzləri, iaşə obyektləri tikilir. Bununla şəhərdə bir xaos yaradıblar. Buna görə də sürücülər bəzən məcbur olurlar ki, hansısa aptekin və mağazanın önündə 5 dəqiqəlik avtomobilini saxlayıb ordan nəsə alsın. BNA isə "Yol hərəkəti haqqında" Qanunun tələbləri çərçivəsində fəaliyyətə üstünlük verir. Həmin qanuna görə, dayanma-durma qadağan olunan yerdə sürücü maşını 5 saniyə də saxlasa, bu, artıq qayda pozuntusudur. O da aydındır ki, qanunu kim pozursa, onun cərimısini də ödəməlidir. Ancaq yaxşı olardı ki, BNA bu gün tətbiq etdiyi sərt cərimə siyasətinə görə tənqid ediləcəyini əvvəlcədən proqnozlaşdıraydı. Parklanma yeri yaratmadan cərimə yazmağa başlamayaydı. Məsələn, "Neftçilər" prospektində "Azneft" meydanından Dəniz Vağzalına qədər dayanma-durma qadağandır. Deyək ki, siz taksi sürücüsüsünüz, sərnişininiz əcnəbi vətəndaşdır, ailəlidir, maşında uşaq arabası var və Dənizkənarı Bulvarı gəzmək istəyir. Maşını saxlayırsınız və baqajından arabanı, yaxud da sərnişinin başqa bir yükünü çıxarmalısınız. Bu da təxminən 30 saniyə - 1 dəqiqəarası vaxt aparır. Müştəri sürücüyə 6-10 manat pul verəcəkdi, onun əvəzinə isə BNA 20 manat cərimə yazdı. Söhbət bundan gedir. Sürücü nə etməlidir?! O, müştərisinə deməlidir ki, "mən 3-ə qədər sayıram, özünüzü maşından atın?"

Bəzi ekspertlər hesab edirlər ki, Bakı Nəqliyyat Agentliyilə nəqliyyat sahəsində fəaliyyət göstərən bir neçə dövlət qurumu hansı sahəyə kimin və necə nəzarət etməli olduğu barədə bir-birilə münasibətlərini hələ ki, tənzimləyə bilməyib.

İqtisadçı Natiq Cəfərli hesab edir ki, həmin səbəbdən də nəqliyyatın idarə edilməsində belə ciddi problemlər yaşanır: "Bu sahədə hüquqi nonsens də yaranıb. Qanunvericiliyə görə, parklanmaya görə cərimələri Dövlət Yol Polisi yazmalıdır. Amma, nədənsə, Nəqliyyat Agentliyi bunu öz üzərinə götürüb və parklanma ilə bağlı yeni bir cərimə strategiyası qurub. Sanki BNA-nın işi ona yönəlib ki, daha çox insanı, sürücünü cəzalandırsın, nəinki təşviq etsin. Hər hansı dövlət qurumu iki istiqamətdə fəaliyyət göstərməlidir: işin yaxşı təşkili, təşviq siyasəti və cəza mexanizmi vasitəsilə qaydaların pozulmasının qarşısının alınması. Amma burada görünən odur ki, strateji olaraq BNA-nın əsas işi məhz cərimələrin sayının artırılması, daha çox cərimələr məsələsinə üstünlük verməkdən ibarətdir. Onun nəticəsidir ki, BNA yenicə fəaliyyətə başlamasına rəğmən, ən çox məhz cərimələr vasitəsilə büdcəsinə daha çox pul cəlb edən bir quruma çevrilib. Bu da təbii ki, vətəndaşlarla sürücülərin ciddi narazılığına səbəb olur. Cərimələri BNA yazsa da, işin təşkililə bağlı cavabdehin kim olduğu isə hələ bilinmir. Bakı Şəhər İcra Hakimiyyəti özlərinə aid olmadığını deməklə öz boynundan atır. BNA isə strukturun qurulması, alternativlərin təklifini ikinci plana atıb. Parklanma qadağandırsa, onun alternativi də olmalıdır. Bununla bağlı isə BNA təəssüf ki, ciddi iş aparmır".

Apardığımız araşdırmalar göstərir ki, BNA ilə bağlı əsas narazılıqlardan biri də parkomatların quraşdırıldığı ərazilərdə onlara cərimənin yazılmasıdır. Bununla bağlı ilk olaraq parkomatları quraşdıran Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) ilə əlaqə saxladıq. BŞİH-dən bildirdilər ki, ötən ilin aprel ayında parkomatların idarəçiliyi Bakı Nəqliyyat Agentliyinə verilib.

BNA-nın mətbuat xidmətinin rəhbəri Mais Ağayev isə bu mövzu ilə bağlı ona ünvanlanan suala belə cavab verib: "Durma qadağandır" işarəsi varsa, orada parkomatın olub-olmaması önəm kəsb etmir. Belə ki, işarə parkomatı qüvvədən salır. "Durma qadağandır" işarəsi olan yerdə avtomobili park etmək olmaz. Əks halda, sürücülər cərimə olunacaq".

Qeyd edək ki, BNA-nın sərt cərimə siyasətindən narazı olanların sırasında tanınmış şəxslər də az deyil. Belə narazılığı ən sərt formada çatdıranlardan biri də "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid olub. O öz "Facebook" profilində BNA-nı sərt tənqid edəndən sonra qurumun rəsmisi Mais Ağayev baş redaktorun sanki yalan danışdığını sübut etməyə çalışmışdı. Buna Rəşad Məcidin münasibəti belə olub: "Mən "Facebook"da şəxsi bir məsələ yazmamışam. Ümumiyyətlə, sürücülərdən eşitdiyim şikayətlərlə bağlı fikrimi bildirmişəm. Taksi sürücüləri deyirlər ki, bir yerdə 20-30 saniyə saxlayanda 20-40 manat cərimələyirlər. BNA-nın 10 dəqiqə saxladığına görə cərimələdiyi 90 PV 525 nömrəli "Toyoto Prado" markalı avtomobilin mənə dəxli yoxdur. Mənim maşınımın nömrəsi 10 PV 525-dir. Bu qurumun açıqlamasını təbəssümlə qarşılayıram. Məni heç kim cərimələməyib. Çünki burada söhbət məndən getmir. Özlərinə də demişəm ki, bu, ümumi ictimai problemdir.

BNA deyir ki, indi maşını 20-30 saniyəlik bir yerdə saxlayan şəxslərə cərimə yazılmır, olubsa da, aradan qaldırılıb. Əgər belədirsə, lap yaxşı. İstəyimiz şəhər nəqliyyatının normal qaydada işləməsidir".

Digər bir narazılıq isə sabiq millət vəkili, məşhur YAP-çı Xeyrəddin Qoca tərəfindən edilib. Onunla da BNA arasında bu mövzuda qalmaqal yarandı. Belə ki, Xeyrəddin Qocanın qızı övladını 20 nömrəli məktəbə aparan zaman dayanma-durma qaydalarını pozub və BNA kamera görüntüləri əsasında ona protokol tərtib edib.

Yazıçı isə sosial şəbəkələrdə bu məsələyə etiraz edərək sözügedən protokolun qanunsuz olduğunu bildirib. Ardınca BNA-nın mətbuat katibi Mais Ağayev açıqlama yayaraq fotolar paylaşıb, X.Qocaya tövsiyələr verib. X.Qocanın isə məsələyə münasibəti belə olub: "Bakı Nəqliyyat Agentliyinin əməkdaşlarının küçələrə tökülüb sürücülərə qanunsuz cərimələr yazmaları haqqında 4 martda açıqlama vermişdim. Yazıda qeyd etmişdim ki, qızıma qanunsuz cərimə yazıblar. Niyə qanunsuz? Çünki agentlik əməkdaşlarının sürücülərə protokol yazmaq ixtiyarları yoxdur! Ona görə ki, agentlik yaradılıb, lakin onların səlahiyyətləri dövlət tərəfindən hələ təsdiq olunmayıb. Bir də ki, qızım avtobus dayanacağından 15 metr aralıda maşın saxlayıb. Agentliyin ictimaiyyətlə əlaqələr şöbəsinin sektor midiri Mais Ağayev isə 15-20 maşının içərisindən qızımın maşınını seçərək qanuna zidd olaraq maşının şəklini sosial mediada yayıb. Maşının sahibi var, maşının nömrəsi var… Mais Ağayev özünü kim hesab edir? Bizi çox məhkəmə ilə qorxudur, onun bu hərəkəti məhkəməlikdir! Bəs, Mais Ağayev niyə belə "iş" görüb? Çünki mənim yazımdan sonra o mənə zəng edib, məsələni öyrənmək istəyərkən, ona bildirmişəm ki, qızım agentliyə zəng edib, Ərəstun Məcidovla danışıb. Ərəstun Məcidov kobudluq edərək ona cavab verib ki, "biz heç kimi tanımırıq!"

Qeyd edək ki, BNA rəsmilərinin tanınmış şəxslər tərəfindən səslənən tənqidi fikirlərə aqressiv yanaşmaları da təəccüb doğurur. Növbeti belə aqressiya ilə qarşılaşanlardan biri də İKT eksperti Osman Gündüz olub. Onun ifadə etdiyi mövqeyə diqqət edək: "Bir neçə gün öncə Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi ilə bağlı bir açıqlama vermişdim. Təxmini mahiyyəti beləydi ki, 100 milyon vəsait xərclənən bu Nəqliyyatın İntellektual İdarəetmə sistemi Nəqliyyat Nazirliyində olduğu zaman iflasa uğrayıb və artıq 2-3 ildir ki, Bakı Nəqliyyat Agentliyinə verilməsinə baxmayaraq, fəaliyyəti bərpa edilməyib. Yumşaq da bir yazı idi. Buna rəğmən, BNA rəsmisi statusun altında çox aqressiv bir rəy yazmışdı.

Düzü, çox da təəccüblənmişdim. Çünki fikrimcə, adi bir tənqid idi, sadəcə, BNA-ya çağırış edilirdi ki, zaman gedir, NİİM bərpa edilməldir.

Vaxt tapıb son iki ildə NİİM-lə bağlı görülən işlər üzrə qısa bir araşdırma apardım. Və hədsiz təəccübləndim, düzü, dəhşətə gəldim.

Baxıram ki, NİİM BNA-ya veriləndən sonra bu sistemin bərpası, həmin o məşhur video monitorla bağlı texniki xidmət, videorabitə işləri ilə bağlı, serverlərlə bağlı, nəqliyyat planlaması və trafik təhlili proqram təminatları ilə bağlı BNA-ya təxminən 28 000 000 manat vəsait ayrılıbmış. Təsəvvür edin, son 1-2 ildə BNA-ya 28 milyon manat vəsait ayrılıb, amma Nəqliyyatın İntellektual İdarəetmə sistemi hələ də ortada yoxdur.

BNA rəsmisi də vətəndaş cəmiyyətindən verilən adi bir təklifə, adi bir tənqidə aqressiya ilə yanaşır".

Bütün bu sadalanan faktlardan sonra bir nəticəyə gəlmək olar. Yaxşı olar ki, BNA cərimələrin yığılmasına çox da meyllənməsin. Şəhərin bərbad gündə olan ictimai nəqliyyat sektoruna bir diqqət ayırsın. Çünki sanki onlar öz nəzarətlərində olan sərnişin avtobuslarını cərimə edilməyən kateqoriya sırasına aid ediblər. Halbuki, daha çox narazılıq məhz həmin avtobus sürücüləri və marşrut sahiblərindəndir. Bir məsələni də xüsusi vurğulamaq istərdik ki, bu üsulla cərimələri toplayıb özünü yaxşı işləyən qurum kimi göstərməyin fəsadlı tərəfləri də var. Son vaxtlar Prezident əhalinin içinə gedib, şəxsən onların problemi ilə tanış olub, həlli istiqamətində konkret addımlar atırsa, BNA niyə sərt cərimə siyasətilə kütləvi narazılığa şərait yaratmalıdır?

***Məhəmmədəli QƏRİBLİ***

# "Yumurta qalmaqalına" OBA marketlər şəbəkəsindən və "Muğan" fabrikindən reaksiya gəldi - "istehsal etməmişik çek göstərsinlər" deyildi, AQTA araşdırmaya başladı

**Məlum olduğu kimi, OBA marketlər şəbəkəsində üzərində istehsal tarixi 15.03.19-cu il göstərilmiş yumurtalar martın 14-də satışa çıxarılıb. Bu barədə Baku.ws-ə İsmayıl Tağıyev adlı şikayətçi məlumat verib. Onun sözlərinə görə, həmin yumurtaları Yasamal rayonunda ("Kaktus" restoranının yaxınlığında) yerləşən OBA marketdən alıb.**




*Aysel Fərzəliyeva: "Araşdırma zamanı bəzi sahibkarların idxal olunan və ölkədə istehsal edilən yumurtaların qutuları üzərindəki istehsal tarixlərini dəyişdirməsi halları aşkarlanıb"*

*Elvin Babayev: "Yumurta OBA marketindən alınıbsa, zəhmət olmasa, müştəri aldığı məhsulun çekini bizə təqdim etsin"*

Üzərindəki istehsal tarixi isə evdə diqqətini cəlb edib. Yumurtanın istehsal tarixi martın 15-də qeyd olunur, ancaq bir gün öncədən satışa çıxarılır.

**Məsələ ilə bağlı OBA marketlər şəbəkəsinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Elvin Babayevə müraciət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, OBA marketlər şəbəkəsi satdığı bütün məhsulların keyfiyyətinə zəmanət verir: "Bir neçə gün öncə sosial şəbəkədə yayılan şəkil və bu halla bağlı biz araşdırma apardıq. Məlum məsələ ilə bağlı Bakıda olan bütün marketlərə baxış keçirdik. Belə bir halla qarşılaşmadıq. Qeyd olunduğu kimi, yumurta OBA marketindən alınıbsa, zəhmət olmasa, müştəri aldığı məhsulun çekini bizə təqdim etsin. Biz sizin qəzet vasitəsilə ondan xahiş edirik ki, aldığı məhsulun çekini bizə təqdim etsin və mağazanın ünvanı tam qeyd olunsun. Onu da vurğulayım ki, həmin yumurtanı istehsal edən istehsalçı ilə də danışdıq. Məhsul "Muğan" quşçuluq fabrikinə aiddir. İstehsalçı ilə də bu məsələni araşdırırıq. Hətta istehsalçı belə bir hadisənin mümkün olmadığını iddia edir".

**Qida Təhlükəsizliyi Agentliyinin mətbuat katibi Aysel Fərzəliyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, üzərində istehsal tarixi 15.03.2019-cu il göstərilmiş yumurtalarla bağlı məlumat mediadan götürülərək araşdırmalara başlanıb.** Araşdırmalar nəticəsində qanunvericiliyin tələbləri çərçivəsində tədbirlər görüləcək. Nəticələr barədə ictimaiyyətə məlumat veriləcək: "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ölkədə qida təhlükəsizliyinin təmin edilməsi və əhalinin sağlamlığının qorunması istiqamətində mütəmadi monitorinqlər aparılır. Aparılan monitorinqlər zamanı bəzi sahibkarların idxal olunan və ölkədə istehsal edilən yumurtaların qutuları üzərindəki istehsal tarixlərini dəyişdirməsi halları aşkarlanıb. Eyni zamanda, məlum olub ki, bəzi sahibkarlar xaricdən idxal olunan yumurtaları yerli müəssisələrin qutularına yerləşdirərək "yerli yumurta" adı altında satışa çıxarırlar. Aşkar olunan faktlarla bağlı qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülüb.

Agentlik bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin diqqətinə çatdırır ki, bu kimi qanunazidd əməllər yolverilməzdir və belə şəxslər haqqında qanunvericilik çərçivəsində ən sərt tədbirlər həyata keçiriləcək. Vətəndaşlardan satış şəbəkələrində belə hallarla rastlaşdıqda konkret faktlarla agentliyin "1003" Çağrı Mərkəzinə zəng edib məlumat verməleri xahiş olunur".

**Günel CƏLİLOVA**

# Xəstəxanalarda infeksion nəzarət məntəqələri...

**Bu gün ölkənin bütün xəstəxanalarında verilmiş qərarların icrası üçün infeksion nəzarət komitələrinin və funksiyalarının yaradılmasına ehtiyac var. Çünki bu funksionallıq saxlanmadıqda təkcə vərəm deyil, çox rahat müalicə olunan bir çox xəstəlik də təhlükəli hala gələ bilər. Milli Məclisin (MM) Səhiyyə komitəsinin ötən iclasında infeksion nəzarət komitələri yaradılması təklif olunur.**



*"İnfeksion xəstəlikdən əziyyət çəkənlərə dispanserlər tərəfindən..."*

*Rasif Bağırov: "İnfeksion xəstəliklərlə bağlı xüsusi komitənin yaradılmasına lüzum yoxdur"*

Bildirilir ki, vərəm xəstəliyi yayılandan sonra ağciyərlərdə və bəzi orqanlarda kütlə əmələ gətirə bilir: "Çox zaman vərəmin müalicəsi zamanı bədəndən bu kütlə təmizlənmədikdə illər ərzində rezidentlik əmələ gəlir. Azərbaycanda bu xəstəliklə mübarizə yüksək səviyyədə aparılır. Amma torakal vərəmlə mübarizədə hansısa əskikliklər var. Əminliklə deyərəm ki, vərəmli xəstə müalicədən sonra sağalmış kimi görünsə də, həmin kütlə boşalmadığı halda, onun sağlamlığında gələcəkdə problemlər yaranır.

Ancaq bəzi ekspertlər infeksion nəzarət komitələrinin yaradılmasının əleyhinədirlər.

**Tibb sahəsi üzrə ekspert Rasif Bağırov bizimlə söhbətində qeyd etdi ki, infeksion xəstəliklərlə bağlı xüsusi komitənin yaradılmasına lüzum yoxdur:** "Bunun üçün əlavə bir komitənin yaradılmasına ehtiyac yoxdur. Azərbaycan Respublikasının "Səhiyyə haqqında" Qanununda qeyd olunur ki, müxtəlif infeksion və ya təhlükəli infeksion xəstəliklərin nəzarətdə saxlanması ilə bağlı xüsusi qaydalar mövcuddur.

Həkimlər bu problemi nəzarətdə saxlayandan sonra əlavə komitənin yaradılmasına ehtiyac yoxdur. Çünki bizdə vərəm xəstəliyindən əziyyət çəkənlərə bu sahə ilə məşğul olan dispanserin xüsusi həkimləri tərəfindən nəzarət olunur. İnfeksion xəstəlikdən əziyyət çəkənlərə dispanserlər tərəfindən nəzarət edilir. Belə olduğu halda, yaradılması təklif olunan qurum hansı işi görəcək və xəstələrə hansı formada nəzarət edəcək?".

Həmsöhbətimiz hesab edir ki, Azərbaycanda vərəm xəstəliyi ilə mübarizə yüksək səviyyədə aparılır. Qeyd olunan xəstəlikdən əziyyət çəkənlərin müalicəsində problem yaşanmır.

**Günel CƏLİLOVA**

# Gömrük Komitəsi sahibkarlarla daha bir görüş keçirdi

**Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsində sahibkarlarla görüş keçirilib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, tədbirdə çıxış edən Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Telman Mehdiyev qeyd edib ki, ölkəmizdə sahibkarlığın inkişafı üçün yaradılan münbit şərait, strateji yol xəritələri, yerli istehsalın artırılması məqsədilə həyata keçirilən tədbirlər Azərbaycanda özəl sektora diqqət və qayğının nəticəsidir.

Baş İdarənin rəisi gömrük sahəsində aparılan islahatlar barədə sahibkarlara ətraflı məlumat verib və bildirib ki, gömrük orqanları biznes-gömrük əməkdaşlığına xüsusi diqqət yetirir. Bununla əlaqədar iş adamları və gömrük əməkdaşları arasında davamlı görüşlər keçirilir, sahibkarların rəy və təklifləri öyrənilir. İstər gömrük-biznes münasibətlərinin şəffaf şəkildə qurulması, sahibkarların hüquqlarının qorunması, istərsə də qanunvericilik bazasının təkmilləşdirilməsi, gömrük tarifləri və digər məsələlərlə bağlı bütün təkliflər nəzərə alınır.

O da bildirilib ki, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsində fəaliyyət göstərən İctimai Şuranın iclaslarında gömrük işinə dair müxtəlif məsələlər müzakirəyə çıxarılır. Məqsəd xarici iqtisadi fəaliyyət iştirakçılarının qarşısına çıxan çətinliklərinhəlli və gömrük əməkdaşları ilə sahibkarlar arasında münasibətlərdə şəffaflığın təmin edilməsi istiqamətində səyləri birləşdirməkdir.

Sonra sahibkarların sualları cavablandırılıb, onların rəy və təklifləri dinlənib.

№ 51 (3949) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

16-18 MART 2019-cu il

## "Nar"ın dəstəklədiyi "Breyn Rinq" intellektual yarışlarının növbəti mövsümü başladı

**Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar", intellektual bilik yarışlarını dəstəkləməyə davam edir. Artıq bir neçə ildir mobil operatorun baş sponsorluq etdiyi "Breyn Rinq" yarışlarının növbəti - on üçüncü mövsümü başlayıb. Yeni mövsümdə komandalar yarışın baş sponsoru olan "Nar" tərəfindən təsis edilmiş "Nar" kuboku uğrunda mübarizə aparacaq.**



Qeyd edək ki, "Breyn Rinq" bilik yarışlarında respublikanın 17 bölgəsi və 11 ali məktəbini təmsil edən 34 komanda iştirak edir. Mart ayının 10-dan başlayan yarış iyun ayınadək davam edəcək. Beləliklə, "Nar" kubokunun sahibi iyun ayında məlum olacaq.

Yarışlar hər həftənin bazar günü saat 20:00-da İctimai Televiziyada yayımlanır. Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə "Breyn Rinq"yayımlanan zaman xüsusi müsabiqə də keçirilir. Belə ki, verilişin yayımı zamanı "Nar"ın "Twitter" hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanırlar. "Breyn Rinq" həvəskarları bu intellektual yarışı izləməklə yanaşı, həm də "Nar"dan hədiyyə qazanmaq şansı əldə edirlər.

Qeyd edək ki, "Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## "Bakcell" və INNOLAND Azərbaycanın ilk blokçeyn hackathon yarışmasını keçirib

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti, İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi və "Waves" Platforması Bakıda ilk dəfə olaraq "Blokçeyn inteqrasiyası üzrə hackathon" yarışması keçirib.**



Blokçeyn sahəsində Azərbaycanda ilk dəfə keçirilmiş hackathon sayəsində yerli startap və developerlər bu texnologiyadan öz layihələrində daha geniş istifadənin yollarını öyrəniblər. Yarış iştirakçıları blokçeyn ilə token əməliyyatları üzrə mərkəzləşdirilməmiş qlobal platforma olan "Waves" Platformasından istifadə edərək müxtəlif tapşırıqların yerinə yetiriblər.

Qeyd edək ki tədbirdə iştirak etmək üçün müraciət etmiş 52 nəfər arasından seçilmiş 4 komanda (ümumilikdə 13 iştirakçı) yarışıb. "MadBots" və "OfficeGuys" komandaları bütün tapşırıqları uğurla yerinə yetirərək qalib elan ediliblər.

Yarışmanın ümumi hədiyyə fondu (500 Waves tokeni) iki qalib komanda arasında bölünüb. Həmçinin, qaliblər "Waves" şirkətindən qrant almaq üçün müraciət etmək imkanını qazanıblar.

Hachathon yarışmasının sonunda "Waves" Platformasının baş əməliyyat direktoru Dmitriy Suxamerov iştirakçılarla görüş keçirib və öz tövsiyələrini bildirib. O deyib ki, qalib komandalar öz fəaliyyətlərini uğurla davam etdirərlərsə, "Waves" gələcəkdə onlara texnologiya və marketinq sahələrində dəstək göstərə bilər.

Xatırladaq ki, keçən ilin sonunda "Bakcell" şirkəti ilə İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Bu tərəfdaşlıq Azərbaycanda startap mədəniyyətinin formalaşdırılması, bu hərəkatın geniş vüsət alması, innovativ təşəbbüskarlıq ruhunun və startap ekosisteminin inkişaf etdirilməsi, mövcud startapların dəstəklənməsi, ölkəmizdə innovativ təşəbbüslərin mövcud iqtisadi proseslərə tətbiqinə şəraitin yaradılması, müxtəlif kəşf və ixtiraların işlənib-hazırlanmasına dəstək və innovasiyaların inkişafına əsaslanan digər tədbirlərin görülməsi istiqamətində böyük əhəmiyyət kəsb edir.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan "Bakcell" şirkəti daim yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələrə öz dəstəyini əsirgəmir.





**Qoç** - Günün ilk yarısında bütün işləri əvvəlcədən planlaşdırmağa çalışmayın. İntuitiv hərəkət etsəniz, ciddi reqlamentdən çıxaraq daha böyük və əhəmiyyətli uğurlara nail ola bilərsiniz.



**Buğa** - Rəqibləri geridə qoyaraq irəliləmək şansları var. Şəxsi münasibətlərdə də yeniliklər zamanıdır. Maliyyə əməliyyatları, alış-veriş, yaradıcılıq üçün münasib zamandır.



**Əkizlər** - Ən müxtəlif işlərin yerinə yetirilməsi üçün münasib zamandır. Özünüzdən bədgüman olmayın. Qüvvə və potensialınıza şübhəniz olmasın. İndiyədək reallaşdırılmasını arzuladığınız məsələni gerçəkləşdirməyə başlayın.



**Xərçəng** - İşlərinizdə irəliləmək üçün rasional düşünün. Qərar qəbul edəndə ön planda olmayın. Perspektivlər sizi təmin edirsə, işə başlayın. Fərdi qərarlarla müqayisədə kollektiv müzakirələr daha yaxşıdır.



**Şir** - Yaxın ətrafınızdakı insanlarla ünsiyyətdə süni problemlər yaratmayın. Rabitə vasitələri və ya texnikanın işində problemlər yarana bilər. İşlərinizə qapılaraq ailə üzvlərinin xahişini qulaqardına vurmayın. Öhdəlikləri unutmayın.



**Qız** - Uzaqdan yaxşı məsləhət alacaqsınız. Təcrübənizi yaxın ətrafınızdakı insanlardan biri ilə paylaşa bilərsiniz. Müxtəlif ağırlıqda və səviyyədəki problemlərin həllində tələskənliyə yol verməyin.



**Tərəzi** - Ünsiyyət və fəaliyyət üçün daha geniş sahəyə ehtiyacınız var. Uğurlarınızla qürrələnməyin, təvazökar olun. İnformasiya ilə işləmək, müzakirələr, təcrübə mübadiləsi üçün yaxşı zamandır.



**Əqrəb** - Maliyyə məsələləri xüsusi aktuallıq kəsb edəcək. Sərmayələr, alış-veriş, bankdan kredit almaq üçün sərfəli zamandır. Danışıqlarda mövqelərinizi qorumağa çalışın. İntuisiyanızın səsinə qulaq asın. Risk etmək olar.



**Oxatan** - Şərtləri təhlil edin, situasiyadan istifadə edin. Sizə dəyər verən insanın məsləhətlərini qulaqardına vurmayın. Yaxşı tanıdığınız insanla əməkdaşlıq edin. Peşəkar fəaliyyətdə ciddi irəliləyiş istəyirsinizsə, aktiv olun.



**Oğlaq** - Seçim qarşısında qalacaqsınız. Aldığınız təklifləri tələsmədən dəyərləndirin. Zərurət yaranarsa, tələsin. Ətalət və tənbəllik zamanı deyil. Problemlərin həllinin sınanmış metodları işlək deyil.



**Dolça** - Günün ilk yarısında başladığınız işlərdə və təşəbbüslərdə uğur qazana bilərsiniz. Kollektiv fəaliyyətdə xeyir var. İşlərin qaydaya salınması, şəxsi münasibətlərin tənzimlənməsi üçün yaxşı zamandır.



**Balıqlar** - Əyləncə və istirahət fikirlərini təxirə salın. Planlaşdırdığınız bəzi tədbirləri və işləri təxirə salmalı olacaqsınız. Səbrli və təmkinli olsanız, situasiya sizi qıcıqlandırmayacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Elan

Mahmudov Yaşar Kamal oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti, ev 196, mənzil 73 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

"Optimal TECHNOLOGİES" MMC-yə (VÖEN №1401112671) məxsus möhür itdiyi üçün etibarsız sayılır.

"Rahat Məkan" mənzil-tikinti kooperativinə məxsus möhür naməlum şəraitdə itirildiyi üçün etibarsız hesab olunur.

Hacıyev Aqil Cəfər oğlunun adına, Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti, ev 67, mənzil 7 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## "Azercell"dən Novruz hədiyyəsi!




**Ölkənin mobil kommunikasiya sektorunun lideri olan "Azercell Telekom" MMC abunəçilərini Novruz Bayramı ərəfəsində sevindirməyə davam edir.**

"Azercell" müştərilərinə bayram əhval-ruhiyyəsi bəxş etmək üçün musiqi sevərlərə xüsusi kampaniya təqdim edir. Belə ki, "Azercell" mart ayının 15-dən aprel ayının 15-nə kimi hər 1GB, 5GB, 10GB, 50 GB (Limitsiz internet) həcmində aylıq mobil interneti paketi sifariş edən və ya GəncOl5, GəncOl8, Hədsiz, Hədsiz İnternet tarif paketlərinindən birini aktiv edən abunəçilərinə ZVUK-dan (onlayn musiqi tətbiqi) 30 günlük pulsuz abunəlik hədiyyə təqdim ediləcək.

40 milyondan artıq musiqi parçasını smartfona daşıyan Zvuk xidməti, istənilən musiqini dinləmək və yeni musiqi parçaları əlavə edərək abunəçilərə öz play listlərini yaratmaq imkanı verir. Kampaniya çərçivəsində xidmətdən istifadə etmək üçün, "Zvuk" mobil tətbiqini "Google Play (Android) və ya App Store (iPhone) platformalarından yükləmək kifayətdir.

"Azercell Telecom" MMC Novruz bayramı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir! Bu bahar "Azercell"lə daha yaxşı yaşayın!

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.